# AVROPA DRON TƏHLÜKƏSİ İLƏ ÜZ-ÜZƏ

Aİ preventiv addım kimi quruma üzv dövlətlərdə "Sülhün qorunması - 2030 Müdafiə Hazırlığı yol xəritəsi" planını təqdim edib.

Plan Avropanın müdafiə imkanlarını gücləndirməyə yönəlib. Avropa Komissiyasının sədri Ursula fon der Lyayen planla bağlı nikbin əhval-ruhiyyədədir. O bildirib ki, son təhdidlər Avropanın risk altında olduğunu göstərir.

Aİ-nin komissarı Andryus Kubilyus bildirib ki, qurumun yeni yeddi illik büdcəsində hərbi və kosmik məqsədlər üçün 131 milyard avronun ayrılmasını təklif edib. Bu da əvvəlki dövrlə müqayisədə (25,5 milyard avro) beş dəfə çoxdur.

SƏHİFƏ 5-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

25 OKTYABR ŞƏNBƏ 2025 № 41 (4242) Qiyməti - 60 qəpik www.kaspi.az



## DÖVLƏTLƏRARASI ƏLAQƏLƏRİN NÜMUNƏVİ MODELİ

Azərbaycan-Qazaxıstan əməkdaşlığı artıq yeni bir format almaqdadır. Prezident İlham Əliyevin Qazaxıstana rəsmi səfəri sözügedən istiqamətdə əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

SƏHİFƏ 3-də



## BANKLAR BU TƏHLÜKƏYƏ QARŞI BİRLƏŞİR

"FinCERT" modeli sadəcə kiberhücumların qarşısının alınması ilə məhdudlaşmır. Bu model gələcəkdə ölkənin maliyyə sabitliyinin qorunması və sektorun risklərə qarşı davamlılığının artırılmasında strateji alət rolunu oynayacaq.

SƏHİFƏ 6-da



## İSTEDADIN QARŞISINA QOYULAN BARYER

Uşaq incəsənət məktəblərində təhsil xərcləri iki dəfə artırılıb. Ekspertlərin fikrincə, bu addım uşaqların incəsənətdən uzaqlaşmasına və bu məktəblərə olan böyük marağın azalmasına səbəb ola bilər.

SƏHİFƏ 14-də



# SÜLH ÜÇÜN YENİ SƏHİFƏ AÇILIR

Azərbaycan bölgədə rifah və sabitliyin tərəfdarı olduğunu bütün dünyaya sübut edir. Azərbaycanın Ermənistana işğal faktı ilə bağlı tətbiq etdiyi tranzit embarqosunu birtərəfli qaydada aradan qaldırması sülhə doğru praktik addım kimi qiymətləndirilir.

**TRANZİT EMBARQOSUNUN LƏĞVİ JESTİ**

Prezident İlham Əliyev qazax həmkarı Kasım-Jomart Tokayevlə görüşündə Azərbaycanın Ermənistana işğal faktı ilə bağlı tətbiq etdiyi tranzit embarqosunu birtərəfli qaydada ləğv etdiyini açıqlayıb: "İlk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub".

**QHT NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜ**

Azərbaycan Prezidentinin məlum bəyanatı fonunda son illərdə ilk dəfə olaraq ölkəmizə məxsus mülki təyyarə İrəvan hava limanına eniş edib. İrəvanda Azərbaycan və Ermənistan qeyri-hökumət təşkilatları nümayəndələrinin görüşü təşkil olunub.

SƏHİFƏ 4-də

"Oxucu yazıçını, yazıçı da oxucunu tamamlamalıdır"

## "BU GÜN ƏDƏBİYYATIN DA SAXTASI VAR"



Ədəbiyyat bütün varlığı - canı və ruhu ilə ona bağlı olan insanları qəbul edir. Onlara bu günündə və sabahında yer verir. Bəzən isə ədəbiyyat insana elə dünəni ilə də bağlı olur. Müsahibimiz yazıçı, publisist, türkoloq, Xalq yazıçısı Anarın qızı Günel Anarqızıdır: "Bir çox şeylərdə olduğu kimi, ədəbiyyatda da dəyərlər dəyişir. Ədəbiyyatın da artıq saxtası var. Digər sahələrdə saxta məhsulları bizə gözəl tərtibatda necə təqdim edirlərsə, ədəbiyyatda da o cür edirlər".

SƏHİFƏ 8-9-da



## BU ŞƏHƏRDƏ İNSANLAR HEY GÜLÜMSƏYİRLƏR...

Naxçıvanın turizm potensialı tədqiqat mövzusu olsa da, hələ sona qədər kəşf olunmayıb. Kiçik Qafqaz dağlarının ətəyində yerləşməsi bölgənin ekoturizminin daha cəlbedici olmasına, təbiət turizminin inkişafına yol açıb.

SƏHİFƏ 7-də



## SƏRMAYƏÇİLƏRİN ƏLİNDƏ QALAN ƏMLAK BAZARI

Bakıda mənzil almaq üçün 18, Gürcüstanda 13, Ermənistanda 10 il işləməlisən. Ekspertlər bunu əmlak bazarına edilən investisiyalar ilə əlaqələndirirlər. Onların fikrincə, bu investisiyalar qiymətləri süni şəkildə artırır.

SƏHİFƏ 11-də



## FUTBOLUMUZUN MƏŞHUR LEGİONERLƏRİ

Azərbaycanda bu mövsümün əsas hadisəsi Vensan Abubakarın "Neftçi"yə gəlişidir. Uzunmüddətli danışıqlardan sonra bir neçə gün öncə kamerunlu forvardın "ağ-qaralar"a keçidi xəbəri gündəmi silkələdi.

SƏHİFƏ 16-da



TDT çərçivəsində iqtisadi əməkdaşlıq genişləndirilir

SƏHİFƏ 2-də



Vergilərlə bağlı dəyişikliklər

SƏHİFƏ 10-da



Yenitikililərin parkinq problemi

SƏHİFƏ 13-də



Qarabağa 500 min turist səfər edib

SƏHİFƏ 2-də



Dünyanın ən böyük hokkey muzeyindən reportaj

SƏHİFƏ 15-də



## Vladimir Putin İlham Əliyevə zəng edib

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Azərbaycan və Rusiya prezidentləri Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində oktyabrın 9-da keçirdikləri görüşün davamı olaraq ikitərəfli gündəliyin bir sıra aktual məsələlərini müzakirə ediblər. Dövlət başçıları iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsinə, həmçinin enerji və nəqliyyat-logistika sahələrində birgə layihələrin həyata keçirilməsinə qarşılıqlı maraqlarını təsdiqləyiblər. Telefon söhbəti zamanı regional əməkdaşlığın bəzi aspektlərinə və beynəlxalq vəziyyətə toxunulub. Müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.




## Qarabağa 500 min turist səfər edib

Son aylar Qarabağ və Şərqi Zəngəzura həm yerli, həm də xarici turistlərin axını xeyli yüksəlib və təkcə yay mövsümündə azad olunmuş ərazilərə 500 mindən çox turist səfər edib.

"Report" xəbər verir ki, bu barədə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb. Bildirilib ki, bölgədə yeni ictimai iaşə obyektləri, hotel və restoranlar fəaliyyətə başlayıb: "Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərdə 37 yerləşmə müəssisəsi fəaliyyət göstərir. Onlardan 20-si Xankəndi şəhərində yerləşir". Məlumatda həmçinin qeyd olunub ki, turistlərin bölgəyə təhlükəsiz və rahat səfərlərinin təmin edilməsi məqsədilə bütün şərait yaradılıb: "Yolumuz Qarabağa" və "e-Polis" portalları vasitəsilə səfər edənlər icazələrini onlayn qaydada əldə edə bilirlər".

# TDT ÇƏRÇİVƏSİNDƏ İQTİSADİ ƏMƏKDAŞLIQ GENİŞLƏNDİRİLİR



TDT Sənaye, Elm, Texnologiya və İnnovasiya üzrə İşçi Qrupu tərəfindən Ümumtürk Patent Təşkilatının yaradılması təklif edilir. Əqli mülkiyyətin innovasiya, elm və sənayenin inkişafının təməlində dayandığını nəzərə alaraq, bu sahədə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi strateji və əməli əhəmiyyət daşıyır.

Bakıda İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Türk Dövlətləri Təşkilatının (TDT) Sənaye, Elm, Texnologiya və İnnovasiya Nazirlərinin 2-ci toplantısı keçirilib. Toplantıda təşkilata üzv ölkələrin təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, türk dövlətləri daim ikitərəfli və çoxtərəfli platformalarda bir-birilərini dəstəkləyirlər. Onun sözlərinə görə, ortaq türk kimliyi, mədəni ənənələr və mənəvi dəyərlər, eləcə də ölkə rəhbərləri arasında qarşılıqlı etimad və dostluq münasibətləri, TDT çərçivəsində əməkdaşlığın daha da güclənməsi üçün möhkəm təməl yaradır.

### ÜMUMTÜRK PATENT TƏŞKİLATI YARADILSIN

M.Cabbarov bildirib ki, TDT Sənaye, Elm, Texnologiya və İnnovasiya üzrə İşçi Qrupu tərəfindən Ümumtürk Patent Təşkilatının yaradılması təklif edilir. Onun sözlərinə görə, əqli mülkiyyətin innovasiya, elm və sənayenin inkişafının təməlində dayandığını nəzərə alaraq, bu sahədə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi strateji və əməli əhəmiyyət daşıyır: "Eyni zamanda, 2023-cü ilin noyabr ayında TDT-nin Astanada keçirilmiş X Sammiti çərçivəsində irəli sürülmüş Türk Dövlətləri Metrologiya Təşkilatının yaradılması təşəbbüsü elm və texnologiyanın inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Bu qurumun təsis olunması, ümumi iqtisadi inteqrasiyanın dərinləşməsi, elmi tədqiqat və innovasiya potensialının gücləndirilməsi baxımından mühüm addımdır".

### QARŞILIQLI SƏRMAYƏ FƏALİYYƏTİNİN GENİŞLƏNMƏSİ

Nazir vurğulayıb ki, ticarət əlaqələrinin dərinləşməsi ilə yanaşı, TDT-yə üzv ölkələr arasında qarşılıqlı sərmayə fəaliyyətinin genişlənməsi iqtisadi inteqrasiyanın vacib istiqamətinə çevrilib. Onun sözlərinə görə, ümumi kapitalı 600 milyon ABŞ dolları olan Türk İnvestisiya Fondu Türk dövlətləri tərəfindən təsis edilmiş ilk birgə maliyyə institutudur: "Bütün bunlar üzv dövlətlər arasında qarşılıqlı iqtisadi əməkdaşlığı gücləndirmək, strateji sahələrə investisiyaları artırmaq və regional inkişafı dəstəkləmək məqsədi daşıyır. Həmçinin, Azərbaycan Özbəkistan, Qırğızıstan və Qazaxıstanla birgə ikitərəfli investisiya fondları yaradıb".



Mikayıl Cabbarov

## SABAH.HUB İNNOVASİYA MƏRKƏZİ

M.Cabbarov bildirib ki, Azərbaycan son illərdə startap və innovasiya ekosisteminin inkişafına xüsusi önəm verir. Bu sahəni iqtisadi diversifikasiyanın, rəqabət qabiliyyətinin və yeni nəsil sahibkarlığın əsas istiqamətlərindən biri kimi qiymətləndirir. Onun sözlərinə görə, startapların təşəbbüskarlığı, çevikliyi və innovativ düşüncəsi ölkəmizdə yeni iqtisadi dəyərlərin formalaşmasına, qeyri-neft sektorunun genişlənməsinə və rəqabətli texnologiya mühitinin yaranmasına mühüm töhfə verir: "Azərbaycanda bu istiqamətdə həyata keçirilən təşəbbüslərdən biri Sabah.hub innovasiya mərkəzidir. Sabah.hub gənc mütəxəssisləri, startapları və investorları bir araya gətirərək ideyadan kommersiyalaşmaya qədər olan prosesdə dəstək göstərir".

M.Cabbarov əlavə edib ki, özəl sektorun və sənaye nümayəndələrinin iqtisadi əməkdaşlıq formatlarına daha fəal şəkildə cəlb olunması vacibdir: "Məhz biznes strukturları əməkdaşlığın əsas hərəkətverici qüvvəsinə çevrilməli, ideyaların, texnologiyaların və investisiyaların mənbəyi olmalıdır. Məqsədimiz ondan ibarətdir ki, ölkələrarası əməkdaşlıq təkcə dövlət qurumları səviyyəsində deyil, həm də şirkətlər, sənaye assosiasiyaları və texnoloji platformalar səviyyəsində qurulsun".

## NAZİRLƏRİN NÖVBƏTİ GÖRÜŞÜ ASTANADA OLACAQ

Tədbirdə çıxış edən Özbəkistanın Ali Təhsil, Elm və İnnovasiyalar Nazirliyinin İnnovativ İnkişaf Agentliyinin icraçı direktoru Asror Norov bildirib ki, ölkəsi sənaye, texnologiya, innovasiya və elm sahələrində əlaqələrin inkişafına dəstək verən mühüm istiqamətləri nəzərdən keçirir.

Qazaxıstanın sənaye və tikinti nazirinin müavini Raxımjan İssakulov deyib ki, ölkəsi gələn il Astanada TDT nazirlərinin 3-cü toplantısına ev sahibliyi etmək istəyir. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Qazaxıstandan olan həmkarının təklifini dəstəkləyib və 3-cü toplantının bu ölkədə keçiriləcəyin bildirib.

Türkiyənin sənaye və texnologiya naziri Mehmet Fatih Kacır vurğulayıb ki, TDT çərçivəsində süni intellekt və rəqəmsal əməkdaşlığın dərinləşdirilməsi çox önəmlidir. "Ölkələrimiz arasında ortaq infrastruktur yaradılması, kibertəhlükəsizliyin gücləndirilməsi və süni intellekt tətbiqlərində etik çərçivələrin müəyyən edilməsi prioritet gündəliyimiz olmalıdır", - deyə o qeyd edib.

# DÖVLƏTLƏRARASI ƏLAQƏLƏRİN NÜMUNƏVİ MODELİ

Azərbaycan-Qazaxıstan əməkdaşlığı yeni format almaqdadır. Prezident İlham Əliyevin Qazaxıstana rəsmi səfəri əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığını genişləndirməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Cənubi Qafqaz-Mərkəzi Asiya birliyi bu gün böyük bir coğrafiyada həyata keçirilən iqtisadi, siyasi, enerji və tranzit, təhlükəsizlik kimi mühüm sahələri əhatələyən meqalayihələrə dair çox böyük perspektivlər vəd edir. Prezident İlham Əliyevin Qazaxıstana rəsmi səfəri sözügedən istiqamətlərdə tək iki dövlət arasında yox, həm də iki böyük region arasındakı əlaqələrin dərinləşdirilməsi, əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

### SƏFƏR PROQRAMI

Qeyd edək ki, Prezident İlham Əliyevin Qazaxıstana rəsmi dövlət səfəri mühüm məqamları ilə yadda qaldı. Dövlət başçısının hava limanında şəxsən qazax həmkarı Kasım-Jomart Tokayev tərəfindən qarşılanması Astanın bu ziyarətə verdiyi önəmin göstəricisi idi. Dövlət başçısı səfər çərçivəsində Kasım-Jomart Tokayevlə təkbətək görüşüb. Astanada dövlət başçılarının iştirakı ilə "Orta Dəhlizin inkişafı" birgə layihəsi təqdim olunub. Azərbaycan-Qazaxıstan sənədlərinin mübadiləsi mərasimi keçirilib. Daha sonra Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclası reallaşıb.

### ETİBARLI STRATEJİ TƏRƏFDAŞLIQ

Dövlət başçıları mətbuata birgə bəyanatla da çıxış ediblər.

Prezident Kasım-Jomart Tokayev bildirib ki, ölkələrimiz ümumi köklərə və tarixə malikdir: "Azərbaycan Qazaxıstanın mühüm etibarlı strateji tərəfdaşıdır. Bu gün münasibətlərimiz sabit inkişaf edir. Dövlətlərarası əlaqələrimizin möhkəmlənməsinə xüsusi diqqət yetiririk. Xalqlarımız arasında dostluğun gələcəkdə də hərtərəfli möhkəmlənməsi və müxtəlif sahələrdə əməkdaşlığa yeni təkan verilməsi əsas məqsəddir. Bu, iki ölkənin köklü maraqlarına uyğundur".

Prezident İlham Əliyev isə bildirib ki, xalqlarımızı ümumi köklərə, mənəvi və mədəni ortaqlığa əsaslanan çoxəsrlik dostluq, qardaşlıq birləşdirir: "Dövlətlərarası münasibətlərimizi bu möhkəm bünövrə üzərində qururuq. Hətta son üç ildə ondan çox qarşılıqlı səfərlərə baxdıqda münasibətlərimizin necə intensiv xarakter daşıdığını əyani şəkildə görmək olar. Hər bir görüş, hər müzakirə son nəticəyə yönəlib".

Ölkə liderləri ən yaxın perspektivdə ikitərəfli əmtəə dövriyyəsini ikiqat artıraraq bir milyard dollara çatdırmağı hədəfləyirlər. Kənd təsərrüfatı, energetika, emal sənayesi, inşaat sektoru, rəqəmsallaşma sahələrində əməkdaşlıq dərinləşdiriləcək. Müştərək müəssisələrin yaradılması, birgə layihələrin hazırlanması da plandadır. Qarşılıqlı faydalı layihələrin maliyyələşdirilməsi üçün Qazaxıstan-Azərbaycan birbaşa investisiyalar fondunun fəaliyyəti də aktivləşdiriləcək.

### TRANS-XƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTU

Təbii ki, iki ölkə arasında danışıqlarda ən mühüm məqamlardan biri tranzit dəhlizlərlə bağlı olub. Bunun məntiqi nəticəsi olaraq dövlət başçıları Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi mühüm strateji dəhlizin reallaşdırılması gedişini nəzərdən keçiriblər. Xatırladaq ki, keçən il bu marşrut üzrə yükdaşımaların həcmi 62 faiz artıb və 4,5 milyon ton təşkil edib. Bu il isə artım hələlik iki faizdir. Tərəflər Orta Dəhlizin mühüm tərkib hissəsi sayılan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu boyunca uzunmüddətli vahid tariflərin müəyyənləşdirilməsi üzərində işləyirlər. Proqnozlara əsasən, görüləcək işlər sayəsində sözügedən istiqamətdə yükdaşımaların həcmi 10 milyon tona çata bilər.

## SON ÜÇ İLDƏ YEDDİ SƏFƏR



Qeyd edək ki, son üç il ərzində Prezident İlham Əliyev Qazaxıstana yeddi dəfə, Prezident Kasım-Jomart Tokayev isə Azərbaycana altı dəfə səfər edib. Bu intensiv qarşılıqlı səfərlər Azərbaycan və Qazaxıstan arasında siyasi dialoqun davamlı xarakter daşıdığını və liderlər səviyyəsində etimadın möhkəm olduğunu sübut edir. İki ölkə arasında bir çox sahələr üzrə əməkdaşlığı özündə ehtiva edən 170 sənəd imzalanıb. Onların arasında Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə xüsusi vurğulanmalıdır.

### İQTİSADİ-TİCARİ MÜNASİBƏTLƏR

İqtisadi-ticari münasibətlərə gəldikdə isə, bu istiqamət dövlətlərarası əlaqələrdə xüsusi önəm daşıyır. Hər iki ölkə iqtisadiyyatın müxtəlif sahələrində ardıcıl birgə təşəbbüslər həyata keçirir və əməkdaşlığı davamlı olaraq genişləndirir. Bu günə qədər Azərbaycanda Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsi 470 milyon dollar təşkil edib, bu göstərici 2025-ci ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə artaraq 547 milyon dollara çatıb.

Bundan əlavə, Azərbaycanın Qazaxıstan iqtisadiyyatına investisiyası 225 milyon dollar, Qazaxıstanın Azərbaycana sərmayəsi isə 136 milyon dollar təşkil edir. 2024-cü ildə Azərbaycan ilə Qazaxıstan arasında tranzit daşımaları əvvəlki illə müqayisədə 3,5 milyon tondan çox olub.

Göründüyü kimi, artıq Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığı yeni bir format almaqdadır. Bu platformada üstünlük təbii ki, iqtisadi inteqrasiya, sülh və sabitlik, təhlükəsizliyin təmini, beynəlxalq aləmdə vahid mövqenin sərgilənməsi, ən əsası isə qarşılıqlı hörmət və birgə maraqların nəzərə alınmasına verilib.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# SÜLH ÜÇÜN YENİ SƏHİFƏ AÇILIR

Azərbaycan bölgədə rifah və sabitliyin tərəfdarı olduğunu bütün dünyaya sübut edir. Azərbaycanın Ermənistana işğal faktı ilə bağlı tətbiq etdiyi tranzit embarqosunu birtərəfli qaydada aradan qaldırması sülhə doğru praktik addım kimi qiymətləndirilir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında tarixi görüşdən sonra bölgədə sülh prosesinin davamlı olaraq irəlilədiyinin şahidiyik. Təbii ki, prosesdə yenə də öncül mövqedə Azərbaycan çıxış edir. Mövcud real şərtlərin sahədə davamlı mahiyyət alması üçün rəsmi Bakı Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində ardıcıl və əhəmiyyəti mühüm olan qərarlara imza atır.

### TRANZİT EMBARQOSUNUN LƏĞVİ

Bu günlərdə Prezident İlham Əliyev Qazaxıstana rəsmi səfəri çərçivəsində qazax həmkarı Kasım-Jomart Tokayevlə görüşündə Azərbaycanın Ermənistana işğal faktı ilə bağlı tətbiq etdiyi tranzit embarqosunu birtərəfli qaydada ləğv etdiyini açıqlayıb. "İlk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub. Zənnimcə, bu, həm də Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir", - dövlət başçısı deyib.

Rəsmi Bakının bu addımı həm də Vaşinqton görüşündən sonra bölgədə sülhün davamlı və qalıcı olması ilə bağlı üzərinə götürdüyü öhdəliklərə sadiqliyinin göstəricisidir. Beləliklə, uzun illərdən bəri təcrid vəziyyətində olan Ermənistan Prezident İlham Əliyevin sözügedən qərarı əsasında yeni nəfəslik əldə etmiş oldu.

### PAŞİNYANDAN İLHAM ƏLİYEVƏ TƏŞƏKKÜR

Yeri gəlmişkən, İrəvandan Azərbaycan tərəfinin məlum qərarı ilə bağlı ardıcıl bəyanatlar və təşəkkürlər gəlməkdədir. Ermənistan baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevə təşəkkür edib. Maraqlı cəhət budur ki, özü də bu təşəkkür İrəvandan yox, Gürcüstanda - V Tbilisi İpək Yolu Forumunda çıxış zamanı səsləndirilib. Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür etməsini çox vacib irəliləyiş adlandırıb. O, tarixi inkişaflara diqqət yetirməyin labüd olduğunu söyləyib: "Hesab edirəm ki, bu, həm də burada özünü göstərir: bir il əvvəl belə bir şeyi görmədik - Ermənistanın Baş naziri Azərbaycan Prezidentinə təşəkkürünü ifadə etmirdi. İndi isə bunu edir və bu, çox vacib bir irəliləyişdir".



### BEYNƏLXALQ BİRLİKDƏN MÜSBƏT REAKSİYA

Beynəlxalq birlik də Azərbaycanın sülh prosesi ilə bağlı qərarlarını alqışlayır. 2020 və 2023-cü illərdəki tarixi qələbəmizdən sonra bölgədə daha çox təxribatçı əməlləri və sülhü zərbə altında qoyan addımları ilə yadda qalan Avropa İttifaqı (Aİ) da artıq Cənubi Qafqazdakı sülh reallıqlarını qəbul edir. Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono Azərbaycanın Ermənistana yüklərin tranzitinə dair bütün məhdudiyyətləri aradan qaldırmasını alqışlayıb. "Azərbaycanla Ermənistan arasında sülh prosesi çərçivəsində atılan son müsbət addımlar, o cümlədən Azərbaycan tərəfindən Ermənistan üçün Azərbaycan ərazisindən yük tranzitinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması barədə verilən bəyanat məni çox ruhlandırdı", - deyə o qeyd edib.

Diplomat vurğulayıb ki, oktyabrın 21-də Cenevrədə Azərbaycan və Ermənistanın parlament sədrləri arasında keçirilən görüş də bu istiqamətdə mühüm addımlardır. Yeri gəlmişkən, spiker Sahibə Qafarovanın erməni həmkarı Alen Simonyanla da görüşünün müsbət ab-havada keçdiyi vurğulanır. "Aİ bu praktiki inkişafları səmimiyyətlə alqışlayır və bu kimi təşəbbüsləri, eləcə də əlavə etimad quruculuğu tədbirlərini dəstəkləməyə hazırdır", - deyə M.Qrono bildirib.

## Qeyri-hökumət təşkilatlarının İrəvan görüşü

Vaşinqton razılaşmalarının ruhuna uyğun olaraq, qarşılıqlı etimad mühitinin yaradılması istiqamətində müsbət addımlar bununla da yekunlaşmır. Azərbaycan Prezidentinin məlum bəyanatı fonunda son illərdə ilk dəfə olaraq ölkəmizə məxsus mülki təyyarə İrəvan hava limanına eniş edib. İrəvanda Azərbaycan və Ermənistan qeyri-hökumət təşkilatları nümayəndələrinin görüşü təşkil olunub. Tərəflər iki ölkənin vətəndaş cəmiyyətləri institutlarının sülh gündəliyinə verə biləcəkləri töhfələrin nədən ibarət ola biləcəyini müzakirə ediblər.



## Yekun sülh sazişi üçün Zəngəzur dəhlizi

Təbii ki, Vaşinqton sənədlərinin ruhuna uyğun olaraq, sülh prosesini irəlilətmək üçün ən vacib məqamlardan biri Zəngəzur dəhlizinin (Tramp yolu) ən qısa zamanda reallaşmasıdır. Bu istiqamətdə Azərbaycanın gözləntiləri ümidvericidir. Prezident İlham Əliyev bəyan edib ki, Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonunadək baş verə bilər. "Hazırda planlaşdırdığımız və həyata keçirdiyimiz bütün işlərlə yanaşı, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində bütün avtomobil və dəmir yolu əlaqələri gələn ilin ortalarına qədər tamamlanacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də hər şey belə sürətlə reallaşdırılacaq və belə olan halda, Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonuna qədər baş verə bilər", - dövlət başçısı bildirib.

İrəvanın da sözügedən məsələdəki son açıqlamaları bu tarixin reallığa çevriləcəyinə dair ümidləri artırır. Ermənistan Baş naziri Nikol Paşinyan bəyan edib ki, hazırda TRIPP layihəsi ilə bağlı Vaşinqtonla müzakirələr aparılır və mövcud infrastrukturun bərpası bir neçə ilə yekunlaşa bilər.

### MİLLİ MARAQLARIMIZA ƏSASLANAN SÜLH GÜNDƏLİYİ

Göründüyü kimi, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə qalib gəlməsinə baxmayaraq, sülh təşəbbüsünü irəli sürdüyü kimi, bu dəfə də bölgədə rifah və sabitliyin tərəfdarı olduğunu bütün dünyaya sübut etdi. Son beş ildə atılan addımlar məhz yekun müsbət nəticənin əldə edilməsi və sülh sazişinin imzalanmasının yaxınlaşdırılmasına hesablanıb. Artıq rəsmi Bakının milli maraqlarımıza əsaslanan sülh gündəliyi beynəlxalq aləm tərəfindən birmənalı olaraq qəbul edilir.

# AVROPA DRON TƏHLÜKƏSİ İLƏ ÜZ-ÜZƏ

Avropa İttifaqı preventiv addım kimi quruma üzv dövlətlərdə "Sülhün qorunması - 2030 Müdafiə Hazırlığı yol xəritəsi" planını təqdim edib. Plan qitənin müdafiə imkanlarını gücləndirməyə yönəlib.



AZƏR NURİYEV

Avropanın təhlükəsizliyi qitənin əsas prioritetləri sırasındadır. Rusiyanın Ukraynada başlatdığı müharibə, işğalın günbəgün genişlənməsi Avropanı da narahat edir. Rusiya dronları Avropa üzərində uçur, nəticədə təyyarə reysləri təxirə salınır, hətta onlar NATO hərbi bazaları üzərində də görünməyə başlayıb. Bu da Avropa İttifaqı (Aİ) ölkələrini təxirəsalınmaz addımlar atmağa məcbur edir. Sanksiyalar Rusiyanın aqressiv hərəkətlərinin qarşısını ala bilmir. İndiyə qədər 19 sanksiya paketi tətbiq olunsa da, Kreml geri çəkilənə oxşamır.

**AVROPANIN MÜDAFİƏ İMKANLARINI GÜCLƏNDİRƏCƏK PLAN**

Aİ preventiv addım kimi quruma üzv dövlətlərdə "Sülhün qorunması – 2030 Müdafiə Hazırlığı yol xəritəsi" planını təqdim edib. Plan Avropanın müdafiə imkanlarını gücləndirməyə yönəlib. Avropa Komissiyasının sədri Ursula fon der Lyayen planla bağlı nikbin əhval-ruhiyyədədir. O bildirib ki, son təhdidlər Avropanın risk altında olduğunu göstərir: "Avropa vahid, həmrəy və qətiyyətlə hərəkət etməlidir. Yol xəritəsi 2030-cu ilə doğru yolda ümumi məqsədləri və konkret mərhələləri özündə ehtiva edən aydın plandır".

Bəs sənəddə nələr nəzərdə tutulub? Məlumata görə, sənəd ilkin olaraq dörd əsas təşəbbüsün yaradılmasını nəzərdə tutur - "Dron divarı" (European Drone Defence Initiative), "Şərq sərhədi gözətçisi" (Eastern Flank Watch), "Avropa hava qalxanı" (European Air Shield) və "Kosmosda müdafiə" (Defence Space Shield). Bunlar quruda, dənizdə, havada, kiber məkanda və kosmosda Avropanın müdafiəsini gücləndirməli və NATO məqsədlərinin yerinə yetirilməsinə töhfə verməlidir. Bundan əlavə, plan silahların birgə hazırlanması və alınması üçün doqquz "imkanlar koalisiyası"nın formalaşdırılmasını, Aİ-nin müdafiə sənayesinin inkişafını, idxaldan asılılığın azaldılmasını və 2030-cu ilə qədər müdafiə avadanlıqlarının vahid bazarının yaradılmasını ehtiva edir.



## HƏRBİ VƏ KOSMİK MƏQSƏDLƏR ÜÇÜN 131 MİLYARD AVRO

Aİ-nin müdafiə məsələləri üzrə komissarı Andryus Kubilyus bildirib ki, qurumun yeni yeddi illik büdcəsində hərbi və kosmik məqsədlər üçün 131 milyard avronun ayrılmasını təklif edib ki, bu da əvvəlki dövrlə müqayisədə (25,5 milyard avro) beş dəfə çoxdur. Yeni büdcə planı 2026-cı ilin sonunadək Aİ-nin bütün ölkələri tərəfindən təsdiqlənməlidir. Andrius Kubiliusun sözlərinə görə, ittifaqa üzv bütün dövlətlər 2028-ci ilədək hərbi xərclərini ümumdaxili məhsullarının azı üç faizinə çatdırsalar, Aİ ölkələrinin 2028–2035-ci illər üçün hərbi xərcləri 4,2 trilyon avroya çata bilər.

"Reuters"in məlumatına görə, əvvəlcə Aİ-nin şərq sərhədlərinin müdafiəsi üçün nəzərdə tutulmuş "dron divarı"nın yaradılması təşəbbüsünü genişləndirmək təklif edilir. Agentliyin bildirdiyinə görə, qərar bəzi regionların özlərini "məhrum hiss etdiklərini bildirməsindən" sonra qəbul edilib. "Yol xəritəsi"ndə pilotsuz uçuş aparatlarına qarşı sistemlər kimi əsas sahələr üçün imkanlar, məqsədlər və mərhələlər müəyyən ediləcək.



Ursula fon der Lyayen

Xatırladaq ki, Aİ-də "dron divarı"nın yaradılması ilə bağlı müzakirələr 2024-cü ilin may ayından aparılır. Kubilius bu təşəbbüslə həmçinin ötən sentyabrda Polşa sərhədində vurulan və Danimarka, İsveç, Norveç və Almaniyanın hava məkanını pozan pilotsuz uçuş aparatları ilə bağlı hadisələrdən sonra çıxış edib. Lakin "Politico" və "Financial Times"ın qeyd etdiyi kimi, AK-nın təşəbbüsü Aİ ölkələrinin liderləri arasında birmənalı qarşılanmayıb. Onlardan bəziləri, o cümlədən Fransa Prezidenti Emmanuel Makron belə bir layihənin təhlükəsizlik sahəsində qəbul edilən bütün qərarların Brüsseldə mərkəzləşdirə biləcəyi ilə bağlı narahatlığını ifadə edib. Bundan əlavə, "dron divarı" çox baha başa gələ bilər və onun effektivliyi yalnız kağız üzərində sübut edilib.



Andryus Kubilyus

## TƏŞƏBBÜS REALDIRMI?

Xatırladaq ki, NATO-nun iyunda keçirilən Haaqa sammitində 32 ölkədən ibarət alyans 2035-ci ilədək ÜDM-nin 5 faizini müdafiəyə xərcləmək öhdəliyi götürüb. İndi isə bu hədəfə necə çatmaq əsas müzakirə mövzusuna çevrilib. Avropalılar müdafiə xərclərinin artırılmasının ABŞ ilə münasibətlər üçün yaxşı olduğunu anlayırlar, amma məyusluq da var. Adının çəkilməsini istəməyən avropalı diplomatlardan biri mediaya deyib ki, Ukraynaya ABŞ silahının NATO vasitəsilə verilməsi optimal seçim deyil. Çünki bu halda Aİ ölkələri "iki dəfə ödəniş etməli olur: birinci ABŞ müdafiə sənayesi, sonra isə özləri üçün". Hazırda ən təcili məsələ isə Avropanın havadan və raketlərə qarşı müdafiəsinin inteqrasiyasıdır. NATO-nun Baş katibi Mark Rutte qarşıdakı illərdə alyansın havadan müdafiə xərclərini 400 faizədək qaldırmalı olduğunu deyib.

Cənubi və Qərbi Avropa ölkələrinin narahatlıqları, regional prioritetlərin balanslaşdırılması və büdcə məsələləri bu təşəbbüsün taleyini müəyyən edəcək. Əgər Brüssel bu mexanizmi bütün qitəni əhatə edən inklüziv və adaptiv sistemə çevirə bilsə, "dron divarı" qitənin təhlükəsizlik tarixində yeni mərhələnin başlanğıcı olacaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# BANKLAR BU TƏHLÜKƏYƏ QARŞI BİRLƏŞİR

“FinCERT” modeli sadəcə kiberhücumların qarşısının alınması ilə məhdudlaşmır. Bu model gələcəkdə ölkənin maliyyə sabitliyinin qorunması və sektorun risklərə qarşı davamlılığının artırılmasında strateji alət rolunu oynayacaq.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



“Gələcəkdə hər hansı bankda baş verəcək kibertəhlükəsizliklə bağlı insident təkcə həmin bankın problemi kimi qiymətləndirilməyəcək. Belə hallar dərhal Mərkəzi Banka ötürüləcək və hadisələr mərkəzləşdirilmiş şəkildə təhlil edilərək bütün banklara çatdırılacaq”. Bu fikirlər Mərkəzi Bankın İnformasiya və kibertəhlükəsizlik departamentinin direktoru Elnur Eyvazlıya məxsusdur.

### “VAXTINDA SEKTORA XƏBƏRDARLIQ ŞƏKLİNDƏ TƏQDİM EDİLƏCƏK”

Qurum rəsmisi Bakıda keçirilən “Critical Infrastructure Defence Challenge 2025” tədbirində deyib ki, Mərkəzi Bank daxilində yaradılan “FinCERT” funksiyası vasitəsilə insidentlər toplanacaq, texniki və risk yönümlü analiz aparılacaq, nəticələr isə vaxtında sektora xəbərdarlıq şəklində təqdim ediləcək. Bu mexanizm bank sektorunda oxşar hadisələrin təkrarlanmasının qarşısını almaq, risklərin yayılmasını məhdudlaşdırmaq və operativ müdaxilə imkanlarını gücləndirmək məqsədi daşıyır. E.Eyvazlı bildirib ki, Daxili İşlər Nazirliyindən daxil olan vətəndaş şikayətləri əsasında pulların harada yerləşdiyi araşdırılır və zərurət yarandıqda həmin vəsaitlərin dondurulması üçün tədbirlər görülür.

Maraqlıdır, yeni “FinCERT” sisteminin işə düşməsi banklar arasında kibertəhlükəsizlik sahəsində məlumat mübadiləsinə necə təsir göstərəcək? Ümumiyyətlə, “FinCERT” sistemi nədir?

Kibertəhlükəsizlik üzrə ekspert Mehman İsgəndərov bildirdi ki, bu gün maliyyə sektoru texnologiyadan asılılıq baxımından ən həssas sahələrdəndir. Onun sözlərinə görə, onlayn bankçılıq, elektron ödənişlər və mobil tətbiqlər milyonlarla əməliyyatın saniyələr içində baş verdiyi bir mühiti formalaşdırır: “Bu dinamika ilə yanaşı, kiberhücumların sayı və mürəkkəbliyi də artır. Belə şəraitdə bankların təkbaşına müdafiə mexanizmləri kifayət etmir. Məhz burada “FinCERT” modeli önə çıxır. “FinCERT” (Financial Computer Emergency Response Team) maliyyə sektoru üçün kibertəhlükəsizlik insidentlərinə cavab verən və qurumlar arasında əməkdaşlıq və məlumat mübadiləsini təmin edən mərkəzdir”.

## İnsidentlər, paylaşım, təhdidlər və koordinasiya

Mütəxəssis deyir ki, “FinCERT”in əsas funksiyalarından birincisi insidentlərin idarə edilməsidir. Yəni, banklardan gələn kibertəhlükə məlumatlarını toplayır, təhlil edir və cavab tədbirlərini koordinasiya edir. İkinci yerdə təhlükəli məlumatların paylaşımı dayanır. Burada hücumların növü, istifadə olunan üsullar və təhdid göstəriciləri barədə məlumatları sektordaxili paylaşır. Üçüncü istiqamət maarifləndirmə və təlimlərdir. Dördüncü isə koordinasiyadır. Yəni, dövlət qurumları, tənzimləyicilər və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində ümumi təhlükəsizlik ekosistemi qurulur. Bu sistemin əsas üstünlüyü reaktiv deyil, proaktiv müdafiə yanaşmasıdır. Yəni, hücum baş verdikdən sonra deyil, baş verməzdən əvvəl təhdidi tanımaq və zərərini minimuma endirmək məqsədi daşıyır.

### DÜNYA TƏCRÜBƏSİNDƏ “FİNCERT” MODELLƏRİ

Mütəxəssis bildirir ki, dünyada “FinCERT” modelləri artıq özünü doğruldub: “ABŞ-də FS-ISAC 1999-cu ildən bəri fəaliyyət göstərir və minlərlə bank, fond birjası və maliyyə şirkətini bir şəbəkədə birləşdirir. Avropa İttifaqında “EU-FIN-CERT” maliyyə sistemindəki insidentləri izləyir, ortaq təhdid məlumat bazası yaradır. Bu modellərin uğuru bir prinsipə əsaslanır: rəqabət deyil, əməkdaşlıq. Banklar bir-birinə rəqib ola bilər, amma kibertəhlükəsizlikdə hamı eyni tərəfdədir”.

## “Texnoloji və strateji üstünlük vəd edir”

Mütəxəssis vurğulayır ki, Azərbaycanda “FinCERT” modelinin tətbiqi həm texnoloji, həm də strateji baxımdan üstünlüklər vəd edir: “Müasir dövrdə kibertəhlükəsizlik yalnız fərdi sistemlərin deyil, bütövlükdə sektorun dayanıqlığının əsas göstəricilərindən biridir. Bu baxımdan “FinCERT” konsepsiyası maliyyə qurumları arasında əməkdaşlığı gücləndirərək informasiya təhlükəsizliyinin kollektiv şəkildə idarə olunmasına imkan yaradır. İlk növbədə, modelin tətbiqi kiberhücumların daha erkən aşkar edilməsini təmin edə bilər. Məlumat mübadiləsinin mərkəzləşdirilməsi, bank sistemində ümumi kibertəhlükəsizlik səviyyəsinin yüksəldilməsi və böhran vəziyyətlərində sektorun davamlılığının artırılması bu yanaşmanın əsas üstünlüklərindəndir”.



Mehman İsgəndərov

### “TƏHLÜKƏSİZLİK BÜTÜN SEKTORUN MƏSULİYYƏTİDİR”

“Lakin “FinCERT” modelinin uğurlu tətbiqi üçün bir sıra vacib reallıqlar da nəzərə alınmalıdır”, - deyir həmsöhbətimiz: “Əvvəla, banklar arasında etimadlı məlumat paylaşımı mədəniyyətinin formalaşdırılması vacibdir. Bundan əlavə, hüquqi və normativ bazanın dəqiq müəyyənləşdirilməsi, həmçinin kadr potensialı və texnoloji resursların uyğunlaşdırılması bu prosesin əsas tələblərindən biridir. Nəticə etibarilə, “FinCERT” sadəcə texniki platforma deyil, həm də yeni düşüncə tərzidir. Bu modelin əsas fəlsəfəsi ondan ibarətdir ki, təhlükəsizlik tək bir bankın deyil, bütün sektorun məsuliyyətidir”.

“FinCERT” modelinin uzunmüddətli təsirinə gəldikdə isə, Mehman İsgəndərov bildirir ki, bu model yalnız kiberhücumların qarşısının alınması ilə məhdudlaşmır: “Bu model gələcəkdə ölkənin maliyyə sabitliyinin qorunması və sektorun risklərə qarşı davamlılığının artırılmasında strateji alət rolunu oynayacaq. Sistemin tətbiqi maliyyə ekosistemində iştirak edən müxtəlif qurumlar üçün fintex şirkətləri, ödəniş provayderləri və elektron ticarət platformaları üçün təhlükəsiz infrastruktur yaradacaq. Bu, rəqəmsal əməliyyatların daha şəffaf və etibarlı aparılmasına şərait yaradaraq, sektorun ümumi təhlükəsizlik arxitekturasını gücləndirəcək. Eyni zamanda “FinCERT” dövlət və özəl sektor arasında real əməkdaşlıq mexanizmlərini möhkəmləndirəcək. Bu, informasiya axınının daha operativ və koordinasiyalı şəkildə idarə olunmasına, kiberinsidentlərə birgə cavab mexanizmlərinin formalaşmasına imkan verəcək”.

# BU ŞƏHƏRDƏ İNSANLAR HEY GÜLÜMSƏYİRLƏR...





Naxçıvanın turizm potensialı tarixçilərin, arxeoloqların, səyyahların tədqiqat mövzusu olsa da, hələ sona qədər kəşf olunmayıb. Kiçik Qafqaz dağlarının ətəyində yerləşməsi bölgənin ekoturizminin daha cəlbedici olmasına, təbiət turizminin inkişafına yol açıb.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Naxçıvanın təkrarsız təbiətə, füsunkar mənzərələrə, unikal ekoturizm potensialına malik olmasını təkcə TV ekranlarından, təbiət filmlərindən izləməmişəm, yalnız dərsliklərdən oxumamışam, bu barədə həvəslə danışan dost-tanışdan, həmkarlarımdan da çox eşitmişəm. Haqqında əsrlərdən bəri dolaşan əfsanə və rəvayətlər təbii ki, bu bölgəyə ilk dəfə səfər edən insanlar kimi mənim üçün də hədsiz maraqlı idi.

Dövlət Turizm Agentliyinin Naxçıvanın ekoturizm potensialını tanıtmaq məqsədi ilə təşkil etdiyi mediatur bu sirli diyara səyahət üçün əsl fürsət yaratdı.

### SEVİLƏN MƏMLƏKƏT

Naxçıvana ayaq basan qonağı şəhərin geniş və təmiz küçələri qarşılayır. İrəlilədikcə müasir binalar yaşı əsrlərlə ölçülən tarixi tikililərə qarışır. Bələdçimiz “Bu təmizliyi və səliqəni insanlar özləri yaradır. Onlar yerə zibil atmırlar, öz şəhərlərini sevir və qoruyurlar”, - deyə bildirir.

Hotelin həyətində rastlaşdığımız türk qonaqların “biz bu məmləkəti sevdik. İnsanları hey gülümsəyir...” sözləri isə bu coğrafiyanın insanlarını dəqiq xarakterizə edir. Bu il dünyanın 68 ölkəsindən Naxçıvana gələn turistlər də bu bölgəni təsadüfən seçməyiblər. Hazırda insanlar bölgəyə ekoturizm, mədəni-tarixi turizm, hayking, trekking, kamping turlarına çıxmaq üçün səyahət edirlər.

### NAXÇIVANIN SAKİT GECƏLƏRİ

Səhər başlayacaq turu gözləməyib şəhərin küçələrini axşam seyrinə çıxırıq. Məşhur rəssam Bəhruz Kəngərlinin əsərində də təsvir olunan 18-ci əsr “Came” məscidi (Cümə məscidi) memarlıq abidəsinin şəbəkəli pəncərə və qapılarını, içərisindəki qədimliyi heyranlıqla seyr edib, “Möminə Xatun” türbəsinə doğru yollanırıq. 12-ci əsrdə Memar Əcəminin istedadının qüdrəti ilə yaranan abidənin möhtəşəmliyinə yarımqaranlıqda tamaşa edib, Gənclər Evinə, əfsanəvi “Qızlar bulağı”na, daha sonra “Saat Meydanı”na doğru hərəkət edirik. Bizi Naxçıvanın küçələrində seyrək maşınların şütüdüyü, adamların tək-tük gözə dəydiyi, işıqları sayrışan sakit gecəsi müşayiət edir...




### NAXÇIVANIN ADI DİLLƏR ƏZBƏRİ OLAN TURİZM POTENSİALI

Naxçıvanın adı dillər əzbəri olan turizm potensialı tarixçilərin, arxeoloqların, səyyahların tədqiqat mövzusu olsa da, hələ sona qədər kəşf olunmayıb. Kiçik Qafqaz dağlarının ətəyində yerləşməsi bölgənin ekoturizminin daha cəlbedici olmasına, təbiət turizminin inkişafına yol açıb. “Bu bölgədə kəşf olunmayan bir sıra yerlər var ki, səyahətçilər üçün cəlbedici ola bilər”, - deyə bələdçimiz bildirir: “Batabat yaylağı, Ağbulaq İstirahət Mərkəzi, Ordubad ərazisində yerləşən və UNESCO-nun ilkin siyahısına əlavə olunan “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi” ekoturizmin təbliğatına dəstək verən məkanlardandır. Naxçıvanda ekoturizm və vəhşi təbiətə insanların diqqət və qayğısı o qədər çox olub ki, heyvanlar insanlardan qorxmurlar. Heyvanların ovlanmasının yasaqlanması bölgədə digər turizm növlərinin inkişafına da təkan verir”.



## MƏN GEDİRƏM ZİYARƏTƏ

Naxçıvanda çoxsaylı dini məkanlar var ki, oraya dünyanın hər yerindən zəvvarlar gəlir. Nəimi türbəsi, Zaviyə-mədrəsəsi, pirlər, türbələr, məscidlər insanları minillik inanclarına qovuşdurur. Yaşı 2500-ə söykənən “Əshabi-Kəhf” haqqında əfsanələr isə bitib-tükənmir. Bu ziyarətgaha dünyanın hər yerindən ziyarətçilər gəlir. Səfərimiz zamanı Türkiyədən gələn ziyarətçi qrupu, Kanadadan olan ana-oğulun ziyarətgaha marağı bizi də heyrətləndirdi. Ziyarətgaha qalxan yol təmir olunub, insanların rahatlığı üçün şərait yaradılıb. Zəvvarlar dağa qalxaraq dualar edir, niyyətlərinin həyata keçməsini diləyirlər.

Şübhəsiz ki, turistlərin bölgənin dini turizm məkanlarına daha çox cəlb olunması üçün təbliğat işlərini genişləndirmək lazımdır. Özbəkistanın Səmərqənd, Buxara şəhərlərində, elə qardaş Türkiyədə olan ziyarətgahlar kimi buraya da turistlərin axınını təmin etməyin yolları araşdırılmalıdır.

Hazırda Naxçıvana ən çox Türkiyədən turistlər gəlir. Qardaş ölkə ilə sərhədin açıq olması gediş-gəlişin asanlaşmasına təkan verir. Ölkə üzrə isə Naxçıvan daxili turizmi ən çox inkişaf edən bölgədir: “Naxçıvan tarixi və dini bölgə olaraq ən çox səyahət olunan bölgədir. Gün ərzində şəhərə enən 18-20 təyyarənin 7-8-i sırf turistik məqsədlə gəlir. May ayından başlayaraq hotellərdə, restoranlarda yer tapmaq çətinləşir”. Bələdçi bildirir ki, Naxçıvanda fəaliyyət göstərən beş hotel “4-5 ulduz” təsnifatlı olsa da, standartlara tam cavab vermir: “Kriteriyalara nəzər saldıqda hotellər “4-5 ulduz” olsalar da, o standartlara uyğun deyillər. Müştərilərin iradlarını eşidincə biz bunları hotel rəhbərlərinin diqqətinə çatdırırıq. Zənnimcə, turist axını çoxaldıqca rəqabət ortaya çıxacaq və müəyyən müsbət dəyişikliklər yaranacaq”.

## TORF VƏ OTLARDAN İBARƏT ÜZƏN ADA

Naxçıvana gələsən Batabatı görməyəsən? Şahbuz rayonu ərazisindəki bu şirinsulu göl uçqun və sürüşmədən yaranıb. Göl öz əzəməti ilə heyran edir. Düzdür, indi payızın küləyi və soyuğundan ətrafı bozdur: “Buralara yazda gələsən, ətraf yamyaşıl olur. İnsanlar buralarda piknik edir. Hərçənd ətrafda insanların istirahəti üçün hansısa infrastruktur gözə dəymir. Amma gölün gözəlliyi üzərində torf və otlardan ibarət üzən adanın mövcudluğu Batabatın adını dünyada məşhurlaşdırıb. Gölün turistik məkan kimi daha çox tanıdılması üçün isə ətrafında görülməsi işlərə ehtiyac var.

Eləcə də Ağbulaq İstirahət Mərkəzində infrastrukturun mövcudluğuna baxmayaraq, turistlər gözə dəymir. Bu məkanda turistlərin istirahət və əyləncəsi üçün xidmət keyfiyyəti artırılmalıdır.

### DUZDAĞ – ŞƏFA YERİ

Naxçıvan həm də mineral bulaqların məskəni, sağlamlıq turizminin ünvanı kimi məşhurdur. Duzdağ Müalicə Mərkəzi isə nəfəs yolu xəstəliklərindən əziyyət çəkən insanların möcüzəvi şəfa yeridir. “Əvvəllər bu mərkəzə Özbəkistan, Qazaxıstan, Almaniyadan insanlar gəlirdi. Bəzi kriteriyaların aşağı düşməsi son vaxtlar gələn turistlərin sayını xeyli azaldıb”, - deyə mərkəzə səfərimiz zamanı deyildi.

Ümumilikdə Naxçıvandan xoş hisslərlə ayrılırıq. AZAL-ın təyyarəsinin üç saat gecikməsi də daha çox məkanı seyr etməyimizə şərait yaratdı. Bələdçinin sözlərinə isə haqq qazandırıram: “Naxçıvanın turizmi unikaldır. Amma bu turizmin tanıdılmasına həqiqətən çox ehtiyac var...”

*Bakı-Naxçıvan-Bakı*

“DİGƏR SAHƏLƏRDƏ SAXTA MƏHSULLARI BİZƏ GÖZƏL TƏRTİBATDA NECƏ TƏQDİM EDİRLƏRSƏ, ƏDƏBİYYATDA DA O CÜR EDİRLƏR”



SÖHBƏTLƏŞDİ XANIM AYDIN

# “BU GÜN ƏDƏBİYYATIN DA SAXTASI VAR”

**Günel Anarqızı:** “Biz kitabları səthi oxumurduq, obrazları hiss edərək, daxilinə nüfuz edərək, yaşayaraq oxuyurduq. Rəfiqələrimlə oxuduğumuz kitablarla öyünürdük. Obrazları, hadisələri müzakirə edirdik, fikrimizi deyirdik”.

Ədəbiyyat bütün varlığı - canı və ruhu ilə ona bağlı olan insanları qəbul edir. Onlara bu günündə və sabahında yer verir. Bəzən isə ədəbiyyat insana elə dünəni ilə də bağlı olur. Müsahibimiz yazıçı, publisist, türkoloq, Xalq yazıçısı Anarın qızı Günel Anarqızıdır.

**“ONLARI ATAMA OXUYURDUM”**

**● Ədəbiyyat sizin üçün nə zaman şəxsi ifadə vasitəsinə çevrildi? İlk qələm təcrübənizi necə xatırlayırsınız?**

● Kitablar arasında böyümüşəm. Özümü dərk etməyə başladığım ilk illərdən etibarən kitaba, mütaliəyə böyük marağım olub. O dövrlərdə radio və televiziyadan başqa informasiya vasitəsi yox idi, internet, sosial şəbəkələr, texnoloji alətlər həyatımıza hələ daxil olmamışdı. Uşaq verilişləri də az olduğundan vaxtımızın çoxunu kitab oxumaqla keçirirdik. Başlanğıcda bu məşğuliyyət mənə bir qədər darıxdırıcı görünsə də, zaman keçdikcə həyatımın ayrılmaz bir hissəsinə çevrildi. Elə bir məqama gəlib çatdım ki, artıq özümü kitabsız təsəvvür edə bilmirdim. Oxuduğum hər bir əsər mənə güclü təsir bağışlayırdı. Tez-tez özümü əsərin əsas qəhrəmanının yerinə qoyur, onun hisslərini sanki daxilimdə yaşayırdım. Həmin anlar mənim yaradıcılıq təxəyyülümün ilk cücərtiləri idi. Müəllifin təsvir etdiyi obrazları öz baxış bucağımdan canlandırmağa, onlara fərqli bir nəfəs verməyə çalışırdım. Təxəyyülümün əsasları da məhz o illərdə formalaşdı.

Məktəb illərində isə oxuduğumuz əsərlər və verilmiş mövzular əsasında tez-tez inşalar yazırdıq. Bu məşğuliyyət məndə fikirlərimi fərqli və yaradıcı şəkildə ifadə etməyə böyük maraq oyatdı. Gənclik illərimdə artıq qısa hekayələr, nağıllar yazmağa başlamışdım. Onları atama oxuyurdum. O da səbirlə, böyük diqqətlə qulaq asar, mənimlə fikirlərini bölüşərdi. Bu yazıların o dövrdə xüsusi bədii dəyəri olmasa da, atamın münasibəti və diqqəti məndə bu sahəyə daha da dərin maraq oyatdı.

Tələbəlik illərində isə yazılarım artıq mətbuatda dərc olunmağa başladı. Həmin vaxt başa düşdüm ki, yazmaq mənim həyatımın ayrılmaz bir hissəsinə çevrilib. Yazı - mənim özümü ifadə etdiyim, nəfəs aldığım, yaşadığım bir dünyaya çevrildi.

**● Möhtəşəm ədəbi irs içində böyümək - Anar, Rəsul Rza, Nigar Rəfibəyli... Bu ailə mühitində yazıçı kimi formalaşmaq sizə daha çox məsuliyyət yüklədi, yoxsa ilham verdi?**

● Burada, sözsüz ki, həm qürurverici bir amil var idi, həm də böyük bir məsuliyyət. Əlbəttə, mən hansı ailədə doğulduğumu, hansı irsin daşıyıcısı olduğumu anlayır və bunun məsuliyyətini dərk edirdim. Lakin bununla belə, gənclik illərində insanın daxilində müəyyən bir avantürist ruh, özünə güvən hissi olur. Elə bilirsən ki, hər şey asandır, heç bir çətinlik olmayacaq. Düşünmürsən ki, əgər sən bu yola çıxırsansa, onu davam etdirmək, layiqincə aparmaq da səndən asılı olacaq. O yaşda insan bu kimi incəliklər üzərində çox dayanmaz.

Əgər yaradıcılığa daha yetkin bir yaşda başlasaydım, bəlkə də bu yükün, bu adın nə qədər böyük məsuliyyət tələb etdiyini daha dərindən anlayardım. Yazılarım mətbuatda çap olunmağa başlayanda, ədəbi camedə artıq məni bir yazıçı, bu nəslin davamçısı kimi qəbul etməyə başladılar. Bu, açığı, mənim üçün bir qədər gözlənilməz oldu.

Həmin dövrdə tanınmış yazıçılar, şairlər yazılarım haqqında çox dəyərli fikirlər səsləndirirdilər. O vaxtlar bu münasibətlər mənim üçün adi görünürdü, çünki onların əksəriyyəti atamın dostları, ailəmizə yaxın olan şəxslər idi. Düşünürdüm ki, bu sözlər daha çox Anarın qızı olduğuma görə deyilirdi, nəinki yazılarımın öz keyfiyyətinə görə. Amma indi - müəyyən bir yaşa çatdıqdan sonra geriyə baxanda anlayıram ki, həmin fikirlərə, o yanaşmalara bəlkə də lazımi qədər dəyər verməmişəm.



*“Oxucu yazıçını, yazıçı da oxucunu tamamlamalıdır. Mən oxucumu anlamalı, nə istədiyini bilməliyəm. Amma bu o demək deyil ki, onun arxasınca gedib, istədiyini verməliyəm.”*



İllər sonra o yazıları yenidən oxuyanda, deyilən sözlərin arxasındakı müdrikliyi, dərinliyi daha aydın şəkildə görürəm. Məsələn, Vaqif Səmədoğlunun mənim ilk kitabıma yazdığı ön söz yadımdadır. O, orada belə bir fikir səsləndirmişdi: “Bu gənc xanımda bu biliklər, düşüncələr hardandır? Və anlayıram ki, bu, nəsillərdən gələn genetik yaddaşdır”.

**“BİZ SÖZÜN ƏSL MƏNASINDA O KİTABLARLA BÖYÜYÜRDÜK”**

**● Ədəbi ailədən gəlmək sizi fərqli bir oxucuya çevirdimi? Hansı yazıçılar və ya kitablar sizin dünyagörüşünüzü dəyişib?**

● Yaş keçdikcə mütaliə zövqü də, oxunan əsərlərə baxış da dəyişir. Orta məktəbdə oxuyanda mən artıq rus klassikasının dühalarını – Tolstoyu, Dostoyevskini oxuyurdum. Bəlkə də, o zamanlar mən onları tam dərinliyinə qədər anlamamışam, amma istər-istəməz yaddaşımda iz buraxıblar. Orada olan obrazları oxucu kimi daxilimdən keçirmişəm. Biz kitabları səthi oxumurduq, obrazları hiss edərək, daxilinə nüfuz edərək, yaşayaraq oxuyurduq. Rəfiqələrimlə oxuduğumuz kitablarla öyünürdük. Obrazları, hadisələri müzakirə edirdik, fikrimizi deyirdik. Özümüz həmin obrazda olsaq nə edəcəyimizi deyirdik. Biz təkcə o əsərləri oxumağımızla öyünmürdük, həm də onları dərk etməyimiz, həyata baxış bucağımızın dəyişməsi, dünyagörüşümüzün genişlənməsi ilə lovğalanırdıq. Yəni əsas söhbətlərimiz ədəbiyyat olurdu. Bütün bunların nəticəsində formalaşırdıq. Biz sözün əsl mənasında o kitablarla böyüyürdük.

**● Əsərlərinizdə hansı mövzular sizi daha çox düşündürür?**

● İkinci Qarabağ müharibəsindən sonra çap olunan “Qarabağ hekayələri” kitabım dünyanın on dilinə tərcümə olundu. Məqsədimiz Qarabağ həqiqətlərinin ədəbiyyat dili vasitəsilə dünyaya çatdırılması idi. Bilirdik ki, problemimizi çox az adam bilir, çox az adam adekvat və obyektiv qəbul edir. O zaman yazıçı kimi missiyam Qarabağ həqiqətlərini mümkün qədər böyük auditoriya çatdırmaq idi. Hazırda qələbə sevincini yaşayırıq – həm cəbhədə, həm xarici siyasətdə. Dövlət başçımızın siyasətini özündə tam və mükəmməl şəkildə əks etdirən güclü bədii əsərlərə ehtiyac var. Publisistikanın rolu danılmazdır. Amma sırf bədii əsər olaraq, xronologiyaya əsaslanaraq, həqiqətlərə söykənərək, böyük bir epoxanı əks etdirən nəhəng və fundamental bir əsər yaranmalıdır. Bu, mütləq yeni tariximizi işıqlandıran və bu tarixdə dövlət başçımızın siyasətinin məğzini və özəyini, nəticədə xalqa verdiyi töhfələri tam qiymətləndirən bir əsər olmalıdır.

**“OXUCU YAZIÇINI, YAZIÇI DA OXUCUNU TAMAMLAMALIDIR”**

**● Oxucu ilə münasibətinizi necə qurursunuz? Onu izləyən, yoxsa ona yol göstərən müəllifsiniz?**

● Bunları, məncə, ayırmaq olmaz. Oxucu yazıçını, yazıçı da oxucunu tamamlamalıdır. Mən oxucumu anlamalı, nə istədiyini bilməliyəm. Amma bu o demək deyil ki, onun arxasınca gedib, istədiyini verməliyəm. Qətiyyən! Amma mən ən azından onu maraqlandıran, narahat edən məqamları bilməli, müfəssəl öyrənib, öz fəlsəfəmdən, süzgəcimdən keçirib, özüməməxsus formada ona təqdim etməliyəm. Ki, bu oxucuya da maraqlı olsun, mənə də.

Mütaliənin səviyyəsi indi çox aşağıdır. Bununla belə, oxucu var və hətta içlərində çox yaxşı oxucular da var. Amma indi ədəbiyyatın səviyyəsi də tam qənaətbəxş deyil.

**● Bakı Kitab Mərkəzinin direktoru kimi siz həm də ədəbi-bədii aləmin mərkəzindəsiniz. Bugünkü oxucu kimdir və nə axtarır?**

● Hər oxucunun konkret istədiyi əsər və müəlliflər var. Onların çoxu təəssüf ki, dəbdə olan müəlliflərdir. Bu dəbi də cəmiyyət özü, insanlar yaradır. Bir çox şeylərdə olduğu kimi ədəbiyyatda da dəyərlər dəyişir. Ədəbiyyatın da artıq saxtası var. Digər sahələrdə saxta məhsulları bizə gözəl tərtibatda necə təqdim edirlərsə, ədəbiyyatda da o cür edirlər. Reklam olunur, bestsellerdir, dünyada bütün reytinqləri qırır... Amma oxuyursan ki, içi boşdur, heç bir ədəbi çəkisi yoxdur. Bu tendensiyaya görə çox təəssüf edirəm.

**● Ədəbiyyatda modernizm, postmodernizm cərəyanları bitdi. Sizcə, bundan sonra hansısa cərəyan yaranacaqmı? Ümumiyyətlə, cərəyana ehtiyac varmı?**

● Mən ədəbiyyatı cərəyanlara bölməyin əleyhinəyəm. Əgər yazıçı bir şey yazanda əsərini hansısa cərəyanın formatında yazmaq istəyirsə və ya hansısa cərəyanın nümayəndəsi kimi yadda qalmaq istəyirsə, bu, artıq qeyri-səmimidir. Yazıçı onu narahat edən, istədiyi bir mövzunu yazmalıdır.



Fotolar: Rüfət Mikayılov / Global Media Group

## “ÇOX İSTEDADLI QADIN YAZIÇILARIMIZ DA VAR”

**● “Qadın yazıçı” anlayışı nə dərəcədə doğrudur?**

● Mən ümumiyyətlə, ədəbiyyatı qadın və kişi yazıçılara bölməyin tam əleyhinəyəm. Bəzən deyirlər ki, ən yaxşı aşpazlar, ən yaxşı dirijorlar kişilərdir. Bunun səbəbi qadınların istedadsızlığı deyil, həmin kişilərin sadəcə daha çox uğurlu olmasıdır. Sadəcə, daha çox məşhurlaşıblar. Ədəbiyyatda da uğur qazanmış, tanınmış məşhurlar daha çox kişilərdir. Amma bu göstərici qadınların az istedadlı olmasından xəbər vermir. Çox istedadlı qadın yazıçılar, dramaturqlar, eyni zamanda da tanınmış, amma istedadsız kişi yazıçılar var.

**● Bəs ədəbiyyata tənqid lazımdırmı? Tənqid yazıçıya nə verir?**

● Əgər tənqidçi peşəkardırsa, tənqidi subyektiv yox, obyektivdirsə, təhqir və böhtan deyilsə, bəli, ehtiyac var. Əgər doğrudan da, tənqid mənim səhvlərimi üzə çıxarırsa, gələn dəfə təkrarlamıramsa, demək, mənim xeyrimədir. İndi tənqidi təhqirlə səhv salır bəzi “tənqidçilər”. Düşünürəm ki, sovet dövründə bir çox yazıçılar məhz o tənqiddən çəkinərək əsərlərinə daha məsuliyyətli yanaşıblar. O vaxtkı tənqidçilər də çox peşəkar, düzgün yön verən, obyektiv idilər. Bir tərəfdən də çox istedadlı yazıçıların evini yıxdı o kəskin senzuralar, bədii şuralar. İndi isə çoxuna elə gəlir ki, özü hər şeyi bilir və onlara heç kimin tənqidi lazım deyil.

**“TEATRLA BƏXTİM GƏTİRMƏYİB”**

**● Teatrla aranız necədir?**

● Təəssüf ki, mənim teatrla bəxtim gətirməyib. Bir pyesim İbrus Teatrında səhnələşdirilmişdi. Cəmi iki dəfə nümayiş olundu, teatr bağlandı. Ondan sonra heç bir teatrda səhnələşdirilmədi. Daha sonra əsərlərimin digər teatrlarda səhnələşdirilməsi planlaşdırılsa da, qəribə şəkildə heç birində alınmayıb. Özümə də müxtəlif səbəblərdən tamaşaların ərsəyə gəlməməsi təəccüblü gəlir. Amma ümumilikdə teatrı çox sevirəm.

**● Əgər bir gün oxucular yalnız bir cümlənizi xatırlayacaqlarsa, o hansı cümlə olsun istəyərdiniz?**

● İndiki məqamda məhz “Qarabağ hekayələri” silsiləmdən “Keçmişə sarı” adlı hekayəmdən bir cümlə yadıma düşür. Hekayədə ailənin yeganə oğlu Məsim Birinci Qarabağ müharibəsi zamanı universitetdə təhsil almasına, onu çox gözəl bir gələcəyin gözləməsinə baxmayaraq, cəbhəyə könüllü yazılır və döyüşlərdə şəhid olur. Atası hekayə boyu onun necə doğulduğunu, necə böyüdüyünü – uşaqlıq, yeniyetməlik illərini detallı şəkildə xatırlayır və onun nədən bu qədər vətənpərvər olduğunu anlamağa çalışır. Bir gün yenə də belə xatirələrə dalanda ata-bala Bakı-Ağdam qatarında getdikləri səfər yadına düşür. Yol boyu balaca Məsim yerlərin adlarını soruşur, atası da ona həmin yerlər haqqında məlumat verir. Stansiyaya çathaçatda heyrətdən gözləri böyüyən uşaq atasına sevgi dolu səslə deyir: “Ata, bizim nə gözəl Vətənimiz var!” Bunu xatırlayan şəhid atası oğlunun içindəki vətən sevgisinin haradan qaynaqlandığını başa düşür. Düşünürəm ki, indiyə kimi bütün yazdıqlarımı bir cümlə ilə yekunlaşdırsam, deyərəm ki, mənim nə gözəl Vətənim var!..

# VERGİLƏRLƏ BAĞLI DƏYİŞİKLİKLƏR

2026-cı ildə aylıq gəliri 2 500 manata qədər olanlar bunun 3%-i qədər vergi ödəyəcəklər. Bu nisbət 2027-ci ildə 5%, 2028-ci ildən isə 7% olacaq.




Gələn il yanvarın 1-dən etibarən Azərbaycanda 2019-cu ildən qüvvədə olan, qeyri-neft-qaz və qeyri-dövlət sektorlarında çalışanlar üçün nəzərdə tutulmuş gəlir vergisi ilə bağlı güzəştin ləğv edilməsi nəzərdə tutulur. Bununla bağlı Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərdə güzəştin müddəti artırılmayıb.

### GƏLİR VERGİSİ İLƏ BAĞLI GÜZƏŞTİN LƏĞVİ GÜNDƏMDƏDİR

Layihəyə əsasən, 2026-cı ildə aylıq gəliri 2 500 manata qədər olanlar bunun 3%-i qədər vergi ödəyəcək. Bu nisbət 2027-ci ildə 5%, 2028-ci ildən isə 7% olacaq. Aylıq gəliri 2 500 manatdan 8 000 manata qədər olanların vergisi 2026-cı ildə 75 manat + 2 500 manatdan 8 000 manata qədər hissənin 10%-i qədər, 2027-ci ildə 125 manat + 2 500 manatdan 8 000 manata qədər hissənin 10%-i qədər, 2028-ci ildən isə 175 manat + 2 500 manatdan 8 000 manata qədər hissənin 10%-i qədər olacaq.

Aylıq gəliri 8 000 manatdan çox olanların vergisi isə 2026-cı ildə 625 manat + 8 000 manatdan artıq hissənin 14%-i qədər, 2027-ci ildə 675 manat + 8 000 manatdan artıq hissənin 14%-i qədər, 2028-ci ildən isə 725 manat + 8 000 manatdan artıq hissənin 14%-i qədər olacaq.

### MEDİA İLƏ BAĞLI GÜZƏŞTLƏRİN MÜDDƏTİ UZADILIR

Sənəddə o da bildirilir ki, Azərbaycanda media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) məhz media ilə bağlı fəaliyyətdən əldə etdikləri gəlirləri, o cümlədən reklam gəlirləri, habelə media subyektlərinə verilən maddi yardımlar üzrə gəlir (mənfəət) və sadələşdirilmiş vergilər üzrə tətbiq olunan güzəştin müddətinin 3 il uzadılması nəzərdə tutulur. Xatırladaq ki, sözügedən güzəşt 2023-cü il yanvarın 1-dən 3 il müddətinə tətbiq edilib və bu ilin sonunda başa çatır.

Mətbuat Şurası İdarə Heyətinin üzvü Hacıbəy Heydərli "Report"a açıqlamasında bildirib ki, vergi güzəştləri media subyektlərinə maliyyə resurslarını səmərəli bölüşdürmək və keyfiyyətli informasiya istehsalına yönəlmək imkanı verir. Onun fikrincə, bu təşəbbüs media sektoruna dövlət səviyyəsində verilən dəyərin göstəricisidir.

### NAĞDSIZ DÖVRİYYƏ 6 FAİZLƏ SADƏLƏŞDİRİLMİŞ VERGİYƏ CƏLB OLUNACAQ

Digər dəyişikliyə əsasən, Azərbaycanda ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən onların nağdsız qaydada ödəmələr əsasında formalaşan dövriyyəsinin 50%-nin ƏDV tutulan ümumi dövriyyələrindən çıxılması, sadələşdirilmiş vergi ödəyən həmin şəxslər üzrə nağdsız dövriyyənin 6% dərəcə ilə sadələşdirilmiş vergiyə cəlb olunması nəzərdə tutulur.

### SAHİBKARLAR ÜÇÜN ƏDV LİMİTİ 2 DƏFƏ ARTIRILA BİLƏR

Həmçinin, Azərbaycanda sadələşdirilmiş vergi ödəyicilərinin ƏDV qeydiyyat öhdəliyi yaradan dövriyyə həddinin nağdsız ödəmələrə münasibətdə 2 dəfə artırılması (200 min manatdan 400 min manata çatdırılması) nəzərdə tutulur.

### TELEFONLARA AKSİZ VERGİSİ

Bundan əlavə, Azərbaycana gətirilən mobil cihazlara gömrük rüsumu ilə paralel aksiz vergisi də tətbiq ediləcək. Beləliklə, fiziki şəxslər tərəfindən bazar qiymətindən asılı olmayaraq, təqvim ili ərzində ölkəyə gətirilən 1 ədəddən artıq mobil cihaz üçün 100 manat aksiz vergisi tətbiq olunacaq. Hüquqi şəxslər tərəfindən satış məqsədi ilə ölkəyə idxal edilən mobil cihazların hər birinə isə 20 manat aksiz vergisi tətbiq olunacaq.

### KİRAYƏ HAQLARINDAN 10 FAİZ TUTULACAQ

Həmçinin, fiziki şəxslərə məxsus yaşayış sahələrinin (mehmanxanalar və mehmanxana tipli obyektlərdə yerləşən yerləşmə vasitələri istisna olmaqla) fiziki şəxslərə kirayəyə verilməsindən əldə olunan gəlirlər vergiyə cəlb olunacaq. Layihəyə əsasən, bu gəlirlərdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulacaq. Bununla bağlı müvafiq qanunvericiliyə dəyişikliklərin edilməsi nəzərdə tutulub.



Hacıbəy Heydərli




## "UZBEKNEFTEGAZ" VƏ SOCAR RAZILIĞA GƏLİB

"Uzbekneftegaz" və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) süni intellekt alətlərinin, rəqəmsal həllərin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi sahəsində əməkdaşlıqla bağlı razılıq əldə edib. "Report" xəbər verir ki, bu barədə "Uzbekneftegaz"ın mətbuat xidməti məlumat yayıb.

"Uzbekneftegaz" şirkətinin nümayəndə heyəti "Türkmənistanın nefti və qazı - 2025" (OGT-2025) adlı beynəlxalq sərgi və konfransda iştirak edib. OGT-2025 çərçivəsində "Uzbekneftegaz"ın İdarə Heyətinin sədri ilə SOCAR prezidenti arasında görüş keçirilib. Danışıqlar konstruktiv və işgüzar mühitdə keçib, tərəflər şirkətlər arasında tərəfdaşlığın yüksək səviyyəsini təsdiqləyiblər", - bəyanatda deyilir.

Tərəflər Üstyurt regionunda geoloji kəşfiyyat işlərinin aparılması üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin həyata keçirilməsini müzakirə edib, seysmik kəşfiyyat işlərinin başlanmasının sürətləndirilməsinə xüsusi diqqət ayırıblar. Görüşün sonunda çöl işlərinin sürətləndirilməsi, zəruri texniki və logistik resursların təmin edilməsi, həmçinin layihənin cari mərhələsinin səmərəliliyinin artırılması üçün kompleks tədbirlər barədə razılıq əldə olunub.

Bundan başqa, tərəflər istehsalın səmərəliliyinin artırılması, xərclərin optimallaşdırılması və ekoloji dayanıqlığın təmin edilməsi üçün süni intellekt alətlərinin, rəqəmsal həllərin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi sahəsində əməkdaşlığın dərinləşdirilməsi istiqamətlərini razılaşdırıblar.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2194
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# SƏRMAYƏÇİLƏRİN ƏLİNDƏ QALAN ƏMLAK BAZARI



Bakıda mənzil almaq üçün 18, Gürcüstanda 13, Ermənistanda 10 il işləməlisən. Ekspertlər bunu əmlak bazarına edilən investisiyalar ilə əlaqələndirirlər. Onların fikrincə, bu investisiyalar qiymətləri süni şəkildə artırır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Mərkəzi Bankın yeni hesablamasına görə, Bakıda maaşla mənzil almaq üçün 18 ildən çox işləmək lazımdır. Xatırladaq ki, Gürcüstanda bu göstərici orta hesabla 13 il, Ermənistanda isə 10 ildir. Bəs niyə qonşu ölkələrdə bu göstərici bizdəkindən daha azdır?

### "HƏR İL ƏMLAKA EDİLƏN YATIRIMLAR DAHA DA ARTIR"

Əmlak eksperti Anar Nəsirovun sözlərinə görə, Azərbaycanda əmlaka tələbat daha çoxdur: "Nə Ermənistana, nə Gürcüstana Azərbaycana olan qədər maraq mövcud deyil. Azərbaycanda yaşamaq istəyən əcnəbilərin də sayı daha çoxdur. Rusiyadan gələn vətəndaşlarımız əvvəlki dövrlərdə Bakıdan ev almağa maraqlı olmasalar da, son illərdə baş verən proseslərə görə, vəziyyət dəyişib. Nəinki MDB ölkələrində, hətta ən inkişaf etmiş ölkələrdə belə Azərbaycan əmlak bazarı kimi etibarlı əmlak bazarı tapmaq çox çətindir. Çünki evə qoyulan pullar qatlanaraq geri qayıdır. O səbəbdən Azərbaycanın əmlak bazarına daha çox investisiya yatırmağa maraq göstərirlər. Ya mənzilə investisiya qoyurlar, kirayə verirlər, ya aldıqları evə köçüb yaşayırlar. Əvvəllər investorlar, iş adamları əmlaka bu qədər pul yatırmırdılar. İndi isə illər keçdikcə əmlaka edilən yatırımlar artır. İstər yerli, istər xarici investorlar Bakıda mənzil almağa, təmir edib satmağa, yaxud kirayə verməyə daha çox maraq göstərirlər. Bu da kirayə qiymətlərinin yüksək olması ilə əlaqədardır. Əgər qiymətlər bir il ensə, ondan sonra hər il aşağı düşəcək. Çünki bu zaman insanlar əmlaka pul qoymağa ehtiyat edəcəklər. Lakin hazırda bunun baş verməsi gözlənilmir".

### "ƏSAS SƏBƏB TƏLƏBİN ÇOX OLMASIDIR"

Ekspertin fikrincə, satışda olan mənzillər azaldıqca, qiymətlər yüksəlir: "Gürcüstanda bizim qədər yeni tikilən binalar yoxdur. Keçmiş sovet respublikalarından əmlak sahəsi üzrə xeyli qabaqdayıq. Qonşu ölkələrdən heç birində hər il qiymətlər bu qədər yüksəlmir. Bunun da əsas səbəbi tələbin çox olmasıdır. Əmlakın qiymətini də tənzimləyən bazardır. Əmlak bazarını tənzimləyən alıcı və satıcı arasında olan fərqdir. Satan çox, alan az olarsa, o zaman qiymət enməsi müşahidə olunar. Amma hazırda bizdə tərsinədir, tələb təklifi üstələyir. Bakı Moskva, Nyu-York, İstanbul kimi böyük şəhər deyil ki, gündə minlərlə ev satılsın. Satışa çıxan evlərin sayı azaldıqca qiymət də yüksəlir".

### ŞİRKƏTLƏRİN ÜZƏRİNDƏKİ ÖHDƏLİKLƏR

A.Nəsirov bildirdi ki, Bakıda mənzillərin baha olmasının bir səbəbi də tikinti normativlərinin tez-tez dəyişməsidir: "Əvvəl torpağın yüzdə 40, yüzdə 50 hissəsində ev tikməyə icazə verilirdisə, indi bu, yüzdə 30 faizə qədər endirilib. Məsələn, 100 sot torpağın maksimum 30 sotunda yeni bina tikə bilərsiniz. Qalan 70 faizi həyət və digər qeyri-yaşayış sahələri üçün ayrılmalıdır. Həmçinin əvvəl 18-20 mərtəbəli bina tikmək olurdusa, hazırda mərtəbələrin sayını azaldıblar. Bu da tikən şirkətin xərclərini daha da artırır. Çünki şirkət bina tikərkən əsasən köhnə tikililəri söküb yerində tikir. Sökdüyü evlərdən çıxarılan insanlara da ya mənzil, ya da kompensasiya verməlidir. Mənzil verəcəyi şəxsləri də kirayə pulu ilə təmin etməlidir. Mənzil verdiyi vətəndaşa əlavə kvadrat da verməlidir. Yəni tikinti şirkəti sadəcə binanı tikmir. Həyət yaradır, qaraj tikir, bütün infrastrukturu təmin edir. Bunların da hər biri mənzilin qiymətinə təsir edir. Həmçinin əvvəlki illərdə daha çox söküntülər olurdu və pilot layihələr həyata keçirilirdi. Amma son dövrlərdə pilot layihələrin sayı azalıb. Yeni qaydalara əsasən, yeni tikilən binalarda istismar müddəti minimum 100 il olmalıdır. Bunun üçün də xüsusi standartlar olmalıdır. Yəni artıq tikinti ləvazimatları daha keyfiyyətli olacaq. Bu da istər-istəməz əmlak qiymətlərinə təsir göstərəcək".



Anar Nəsirov

## Bahalaşmanın qarşısını necə almaq olar?

Ekspert həmçinin bahalaşmanın qarşısının alınması üçün atılmalı olan addımlardan da bəhs etdi: "Şirkətlərə tikintiyə uyğun torpaqlar ayrılmalıdır. Onlara torpaq güzəştli şəkildə təklif olunmalıdır ki, daha ucuz başa gələn evlər tiksinlər. Bu, həm bazarı tənzimləyəcək, həm də vətəndaşlara kömək olacaq".

### "ONLARDA QİYMƏT ARTIMI BİZDƏKİ QƏDƏR KƏSKİN DEYİL"

İqtisadçı Eyyub Kərimli isə düşünür ki, qonşu ölkələrdə əmlakın qiymət artımı bizdəki qədər kəskin deyil: "Bu da həmin ölkələrdə mənzillərin investisiya aləti kimi istifadə olunmamasından irəli gəlir. Azərbaycanda mənzil qiymətlərinin artımı süni xarakter daşıyır. Bunu tələb və təkliflə əsaslandırmaq düzgün deyil. Çünki bəzi insanlar mənzili yaşamaq üçün yox, investisiya aləti olaraq dəyərləndirirlər. Digər investisiya alətlərindənsə, mənzilə güvənirlər. Bu da tələbi süni olaraq şişirdir. Digər faktor orta aylıq əməkhaqqıdır. Hansı ki, digər iki ölkədə də orta aylıq əməkhaqqı bizim ölkəmizdəkindən yüksəkdir. İnsanların da düşüncəsində "hər kəsin evi olmalıdır" prinsipi hökm sürür. Xaricdə olduğu kimi kirayə qalmaq istəmirlər".

İqtisadçının fikrincə, ölkəmizdə mənzil qiymətlərinin aşağı enməsi gözlənilmir: "Azərbaycanda ev almaq üçün 18 il işləmək lazım olduğu fikri ilə razılaşmıram. Çünki əməkhaqları fərqlidir. Orta əməkhaqqı alan bir şəxsin 18 ilə toplayacağı məbləğ xeyli böyük puldur. Mənzil bazarında daha ucuz mənzillər də əldə etmək olur. Bütün dünyada mənzil qiymətləri yüksəlir. Bu da əhali artımı ilə əlaqədardır. Düşünürəm ki, ölkəmizdə mənzil qiymətləri artmaqda davam edəcək".



Eyyub Kərimli

# AĞ XALATLI KÖÇ

**SEVİNC ABBASOVA**

Son illər Azərbaycan səhiyyəsində ciddi struktur dəyişiklikləri aparılsa da, sistemin dayanıqlılığı və gələcəyi ilə bağlı narahatlıqlar qalmaqdadır. Bu narahatlığın əsas səbəblərindən biri həkimlərin yaş bölgüsü, kadr çatışmazlığı və xaricə beyin axınıdır. Rəsmi statistika və ekspert rəyləri göstərir ki, ölkədə tibbi kadr potensialı tədricən yaşlanır, gənc mütəxəssislər isə daha çox xarici ölkələrdə işləməyə üstünlük verirlər.

## HƏKİMLƏRİN ORTA YAŞI ARTIR

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) məlumatına görə, ölkənin səhiyyə sistemində fəaliyyət göstərən həkim heyətinin yaş strukturunda orta yaşlı kadrlar üstünlük təşkil edirlər. Ümumi heyətin təxminən 76 faizi 35–55 yaş arası mütəxəssislərdən ibarətdir. 35 yaşadək gənc həkimlərin payı isə cəmi 10,3 faiz təşkil edir. Bu rəqəmlər göstərir ki, yaş balansı ciddi şəkildə pozulub.

Dövlət Statistika Komitəsinin 2025-ci ilin əvvəlinə olan məlumatına əsasən, ölkədə ümumilikdə 35,2 min həkim fəaliyyət göstərir. Onların 26,2 mini dövlət, 9 mini isə özəl tibb müəssisələrində çalışır. Qadın həkimlərin sayı 23,2 min nəfərdir.

## “REZİDENT 400 MANATA NECƏ YAŞASIN?”

Həkim-anestezioloq Turanə Rəsulova deyir ki, əslində son illər Azərbaycanda gənc həkimlərin səhiyyə sisteminə gəlişində müəyyən dinamika hiss olunur. Amma proses regionlarda zəif gedir: “Gənclərin mühüm hissəsi ölkədən getməyə üstünlük verir. Artıq universitetin ilk illərindən etibarən tələbələr özlərini Almaniya, Türkiyə, Avropa və ABŞ kimi ölkələrdə ixtisas təhsili almağa hazırlayırlar. Bu, gələcək üçün təhlükəli tendensiyadır”.

Həkimin sözlərinə görə, Azərbaycanda rezidentura sisteminin tətbiqi çox vacib addım idi. Amma bu sistemin nə dərəcədə səmərəli işlədiyi hələ də sual altındadır: “Rezident həkim-assistentlər 400–500 manat civarında aylıq məvacib alırlar. 24 yaşında, həyatını yeni quran bir gənc üçün bu maaş nə dərəcədə yetərlidir? Ona görə də gənc həkimlər ən azından qonşu Türkiyəyə, Almaniyaya və ya Avropaya getməyin daha məqsədəuyğun olduğunu düşünürlər”.

Turanə Rəsulova əlavə edir ki, dövlət xəstəxanalarında həkimin bir müayinə üçün hesabına yatırılan məbləğ cəmi 1 manat 95 qəpikdir: “İcbari Tibbi Sığorta bu qədər vəsait ayırır. Xəstəyə verilən çekdə isə həmin xidmət 25-26 manat kimi göstərilir. Bu, sistemdəki böyük uyğunsuzluq və ədalətsiz bölgü deməkdir”.

Həmsöhbətimizin qənaətincə, həkimlərin sosial statusu və cəmiyyətdəki nüfuzu da getdikcə zəifləyir: “Həkim olmaq uzun illərin zəhmətidir. Bu peşə sahibləri cəmiyyətin ən ali təbəqəsi sayılmalıdır. Əks halda, yanlış münasibət formalaşır. Türkiyədə həkimlərə qarşı zorakılıq halları artıb. Əgər bu reallıqlardan nəticə çıxarmasaq, eyni aqibət bizi də gözləyə bilər”.


Turanə Rəsulova

> TƏBİB-in məlumatına görə, ölkənin səhiyyə sistemində fəaliyyət göstərən həkim heyətinin yaş strukturunda orta yaşlı kadrlar üstünlük təşkil edirlər. Ümumi heyətin təxminən 76 faizi 35–55 yaş arası mütəxəssislərdən ibarətdir. 35 yaşadək gənc həkimlərin payı isə cəmi 10,3 faiz təşkil edir. Bu rəqəmlər göstərir ki, yaş balansı ciddi şəkildə pozulub.



## Təşviqedici layihələrə ehtiyac var

Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının (AKHA) sədr müavini Hüseyn Hüseynzadə bildirir ki, gənc həkimlərin əsas problemi təcrübə ilə bağlıdır: “Rezidentura və aspiranturaya qəbul ola bilməyən tələbələrin praktik bacarığı aşağı olur. Dövlət klinikaları bütün məzunları işə qəbul edə bilmir, özəl klinikalar isə yalnız təcrübəli həkimləri işə götürür. Bu səbəbdən uyğun iş və ya təcrübə tapa bilməyən tələbələr yaxın ölkələrə, məsələn, Türkiyəyə üz tutur. Türkiyədə həkimlər 3-5 il ərzində 100-150 xəstə üzərində praktiki təcrübə qazanırlar ki, bu da Azərbaycanda mümkün deyil. Eyni zamanda Almaniya da həm təhsil, həm də gələcək həyat üçün əlverişli seçim sayılır”.

Sədr müavini hesab edir ki, xaricdə stabil iş və gəliri olan birinin Azərbaycana qayıtması üçün mütləq ciddi maddi stimul olmalıdır. O, bununla bağlı təşviqedici layihələrin həyata keçirilməsini vacib sayır.

Sosial-Strateji Tədqiqatlar və Analitik Araşdırmalar Birliyinin rəhbəri İlqar Hüseynli isə bildirir ki, hazırda bütün rayonlarda həkim çatışmazlığı var: “Məsələn, Gədəbəy Mərkəzi Xəstəxanası vaxtilə tam gücü ilə işləyirdi, indi isə həkim tapılmır. Şirvandan Gəncəyə qədər normal cərrah-travmatoloq tapmaq müşkülə çevrilib. Çünki həkimlər sürətlə ölkəni tərk edirlər. Düzdür, onlarla bağlı konkret statistika yoxdur. Amma müşahidələr göstərir ki, gedənlərin sayı ildən-ilə sürətlənir. Hətta nəinki gənc, bizim yaş qrupundan olan həkimlər də ölkədən gedirlər. Azərbaycandan son 5-7 ildə təkcə Almaniyaya 2000–2500 həkim köç edib. Bu il Amerikada USMLE (United Status Medical Lisensing Examination – Birləşmiş Ştatların Tibb üzrə Lisenziyalaşdırma İmtahanları) prosesindən uğurla keçən 10 azərbaycanlı gənc həkim də bu ölkədə çalışmaq imkanı qazanıb”. Ekspertin sözlərinə görə, həkimlərin xaricə getməsinin əsas səbəbi aşağı maaş və qeyri-sabit iş şəraitidir: “Qonşu Türkiyədə rezident 5-7 min manat dəyərində maaş aldığı halda, Azərbaycanda eyni kateqoriyalı həkim 400 manat alır. Bu fərq, təbii ki, seçimdə həlledici rol oynayır”.


Hüseyn Hüseynzadə

## “Yaşlı həkimlərin işdən çıxarılması doğru deyil”

İ.Hüseynli hesab edir ki, sistemin digər problemi yaşlı həkimlərin işdən uzaqlaşdırılmasıdır: “65 yaşa çatan həkimlərin avtomatik işdən çıxarılması doğru deyil. İnkişaf etmiş ölkələrdə məşhur həkimlər 70-75 yaşında həm müalicə, həm də tədrislə məşğul olurlar. Biz isə təcrübəni itiririk. Əslində yaşlı həkimlər gənclər üçün mentor və tədrisçi rolunda saxlanılmalı, onların bilik və təcrübəsi yeni nəslə ötürülməlidir. Bu, həm sistemin keyfiyyətinə, həm də tədris prosesinə ciddi təsir göstərə bilər”.

### “GERİ DÖNÜŞ BAŞLAYIB”

Almaniyanın Frankfurt Oder xəstəxanasının Qulaq, burun, boğaz xəstəlikləri, üz plastik və rekonstruktiv klinikasının baş həkimi Cavid Hüseynzadə deyir ki, gənclərin xaricə üz tutmasının əsas səbəbi Azərbaycanda diplomdan sonrakı təhsilin zəif təşkil olunmasıdır. “Rezidenturada oxuyan həkimlər çox aşağı maaş alır. Məsələn, Almaniyada rezidenturada təhsil alan həkim birinci ildən 3500-4000 avro civarında maaş qazanır. Bu gəlir təkcə gündəlik xərcləri deyil, həm də təhsilə sərmayə qoymaq imkanlarını yaradır”, – o vurğulayır.

Mütəxəssisin sözlərinə görə, Almaniyada həkimlərin peşəkar inkişafı üçün geniş şərait mövcuddur: “Rezidenturada oxuyan hər bir həkimə beynəlxalq tibbi ədəbiyyata pulsuz giriş imkanı verilir. Əgər ölkədaxili kurslara qatılırsa, həmin kursların xərclərinin bir hissəsi xəstəxana tərəfindən qarşılanır. Yəni sistem həkimin həm maddi, həm də elmi inkişafını dəstəkləyir. Bu da təbii olaraq həkimlərin Almaniyaya axınının artmasına səbəb olur”.

Cavid Hüseynzadənin fikrincə, bütün bu reallıqlara baxmayaraq, Azərbaycan səhiyyəsi hazırda özünün ən parlaq dövrünü yaşayır: “İllər öncə Avropadan ölkəmizə yenilik gətirənlər əsasən xarici həkimlər idi. Amma bu gün fərqli mənzərə formalaşıb, artıq xaricdə təhsil almış, orada təcrübə toplamış, lakin doğma dilimizdə danışan həmkarlarımız Azərbaycana qayıdaraq ən yüksək səviyyədə xidmət göstərirlər”.


Cavid Hüseynzadə

# YENİTİKİLİLƏRİN PARKİNQ PROBLEMİ

Qanunvericiliyin tələbinə görə, yeni çoxmənzilli yaşayış binasının layihəsində hər mənzilə ən azı bir avtomobilin park olunması üçün yer ayrılmalıdır. Lakin reallıqda başqa mənzərənin şahidi oluruq.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Paytaxtda yeni inşa olunan binalarda yaşayan sakinlər arasında ən çox səslənən narazılıqlardan biri parkinq problemidir. Müasir görünüşlü, göz oxşayan binalar ilk baxışdan rahat görünsə də, bu yaşayış komplekslərində avtomobil saxlamaq demək olar ki, mümkünsüzdür. Əksər yenitikililərdə sakinlərin avtomobilləri həyətə buraxılmır.

Binalarda təklif olunan alternativ variant yeraltı qarajlardır. Lakin qaraj yerlərinin sayı az, qiymətlər isə "fantastik" səviyyədədir. Üstəlik, qarajı almaq istədikdə, evin qiymətinə bərabər pul ödəsən də, sənəd verilmir. Bəs bu problemdən çıxış yolu nədir?

### "QARAJLAR MƏNZİL SAYINA UYĞUN DEYİL"

İnşaat eksperti Elnur Azadov deyir ki, ciddi normativ tələblər olmadığı üçün tikinti şirkətləri bu məsələni fərdi şəkildə həll edirlər: "Yaşayış komplekslərində qarajların satılması, yaxud icarəyə verilməsi şirkətin qərarından asılıdır. Adətən qaraj yerləri mənzil sayına uyğun deyil, ən yaxşı halda onun yarısı qədər olur. Çünki yeraltı qarajların inşası xeyli investisiya tələb edir".

E.Azadov vurğulayır ki, bəzi tikinti şirkətləri satış üçün nəzərdə tutulan qarajların alıcısının az olduğunu bildiyi üçün, ümumiyyətlə böyük qaraj tikmir: "Yəni gələcəkdə parklanma probleminin yaranacağı əvvəlcədən düşünülmür. Şirkətlər əsasən öz xərclərini və qazanc balansını qorumağa çalışırlar".

### "KİM DAHA ÇOX PUL VERİRSƏ, ONA SATIRLAR"

Mütəxəssisin sözlərinə görə, bəzən layihələndirmə işini sırf memarlar özləri həyata keçirir: "Onlar bu sahədə texniki imkanları tam bilmədiklərinə görə qərarları öz düşüncələrinə əsasən verirlər. Nəticədə binalar təhvil verildikdən sonra qaraj və parklanma problemləri üzə çıxır. Tikinti şirkətləri bu vəziyyətdən sui-istifadə edirlər. Qaraj yerləri məhdud olduğuna görə, şirkətlər onları kim daha çox pul təklif edirsə, həmin şəxsə satır və ya icarəyə verirlər".

## "MƏNZİL ALARKƏN MÜQAVİLƏYƏ DİQQƏT EDİN"

Ekspert əlavə edib ki, tikinti şirkətləri bazarda iki hüquqi statusda - MTK və MMC kimi fəaliyyət göstərirlər. Əgər bina MTK statusu ilə inşa olunubsa, binanın bütün hissələri MTK-nın balansına daxildir və vətəndaşların bu işlərdə iştirak və nəzarət hüququ var. Amma bina MMC statusu ilə inşa olunubsa, qaraj sahələri hüquqi olaraq şirkətin balansında qalır və satış, icarə, istifadə qaydalarını şirkətin özü müəyyənləşdirir: "Vətəndaşlar mənzil alarkən müqaviləyə xüsusi diqqət yetirməlidirlər. Müqavilədə qaraj yerlərinin statusu, yəni icarə, satış və ya ümumi istifadəyə açıq olub-olmaması qeyd edilməlidir. Əks halda sakinlər sonradan ciddi problemlərlə üzləşirlər".

### QARAJ YERLƏRİ HÜQUQİ BAXIMDAN NECƏ RƏSMİLƏŞDİRİLMƏLİDİR?

Hüquqşünas Sabir Qəniyev deyir ki, çoxmənzilli yaşayış binalarının zirzəmi və qaraj sahələrinin hüquqi statusu binanın layihəsində həmin sahələrin necə nəzərdə tutulmasından asılıdır: "Əsas qayda odur ki, əgər qaraj sahəsi yaşayış binasının ümumi sahəsinə aid edilibsə, bina sakinlərinin ümumi paylı mülkiyyətində olmalıdır. Belə ümumi əmlak özəlləşdirilə və ya özgəninkiləşdirilə bilməz, yəni ayrı-ayrılıqda kimsənin adına çıxarış alınıb xüsusi mülkiyyət kimi rəsmiləşdirilə bilməz".

## "QARAJ ALARKƏN BU SƏNƏDLƏR TƏLƏB EDİLMƏLİDİR"

Hüquqşünas bildirir ki, əgər binanın layihəsində zirzəmi sahəsi "qeyri-yaşayış sahəsi" kimi ayrılıbsa, yəni şirkət həmin sahəni ayrıca obyekt kimi sənədləşdiribsə, onda vəziyyət fərqlidir: "Yəni layihədə texniki zirzəmi əvəzinə qeyri-yaşayış sahəsi nəzərdə tutulubsa, bu sahə üzrə çıxarış tikinti şirkətinin adına ola bilər. Belə rəsmiləşdirmə o deməkdir ki, qaraj yerləri binanın ümumi əmlakına daxil deyil, inşa edən hüquqi şəxsə məxsus ayrı mülkiyyət obyektidir. Bu halda şirkət həmin sahəni sonradan satmaq və ya icarəyə vermək üçün hüquqi baza əldə edir. Qanunvericilik baxımından sakinlər üçün ən etibarlı variant birincisidir, çünki ümumi əmlak toxunulmaz sayılır, lakin ikinci halda şirkət qarajı öz xüsusi mülkiyyəti kimi satmaq hüququ qazanır. Qaraj yeri alan şəxs satıcıdan mülkiyyət hüququ sənədi (çıxarış və ya texniki pasport), notarial alqı-satqı müqaviləsi, əgər mövcuddursa, qarajın plan-ölçüsünü göstərən texniki sənədləri tələb etməlidir".



## "YÜKSƏK MƏBLƏĞLƏR HÜQUQİ CƏHƏTDƏN QANUNSUZ DEYİL"



Elnur Azadov

Sakinlərin növbəti iddiası tikinti şirkətlərinin qaraj yerlərinin satış qiymətini istədikləri kimi müəyyən etməsidir. Hüquqşünas bildirir ki, qanunvericilik tikinti şirkətinin qaraj yerlərinə hər hansı qiymət tarifləri müəyyən etmir: "Yəni qaraj yerləri də digər daşınmaz əmlak kimi bazar prinsipləri ilə satılır, qiymət satıcı ilə alıcının razılaşmasına bağlıdır. Dövlət qurumlarının mənzillərin və ya qarajların satış qiymətinə birbaşa müdaxilə səlahiyyəti yoxdur. Praktikada da görürük ki, tikinti şirkətləri qaraj yerlərini kifayət qədər yüksək qiymətlərə təklif edirlər. Yüksək məbləğlər hüquqi cəhətdən qanunsuz deyil, çünki bu, şirkətlə alıcı arasındakı özəl mülki hüquqi razılaşmadır".

### HƏR MƏNZİLƏ BİR QARAJ AYRILMALIDIR?

Hüquqşünas vurğulayır ki, qanunvericiliyin tələbinə görə, yeni çoxmənzilli yaşayış binasının layihəsində hər mənzilə ən azı bir avtomobilin park olunması üçün yer ayrılmalıdır: "Bu norma icbari xarakter daşıyır və tikinti ekspertizası, icazə verən orqanlar layihələrdə bu cəhəti yoxlayırlar. Əgər yaşayış binasının layihəsində müvafiq parkinq sahəsi ayrılmayıbsa, bu, şəhərsalma norma və qaydalarının pozulması deməkdir".



Sabir Qəniyev

# İSTEDADIN QARŞISINA QOYULAN BARYER

Uşaq incəsənət məktəblərində təhsil xərcləri iki dəfə artırılıb. Ekspertlərin fikrincə, bu addım uşaqların incəsənətdən uzaqlaşmasına və bu məktəblərə olan böyük marağın azalmasına səbəb ola bilər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda uşaq incəsənət məktəblərində ödənişli təhsil qiymətlərinin kəskin artırıldığı iddia olunur. Bununla bağlı Abşeron rayon Saray qəsəbə Uşaq İncəsənət Məktəbində təhsil alan uşaqların valideynləri müraciət edib. Valideynlər bildirir ki, ödənişli təhsil alan uşaqlar üçün ödənişlər iki dəfəyədək artırılıb. Bu isə ixtisasdan asılı olaraq aylıq ödənişin 100-150 manata qədər yüksəlməsi deməkdir. Onlara bunun Mədəniyyət Nazirliyi tərəfindən verilmiş göstəriş olduğu bildirilib. Valideynlərin sözlərinə görə, təhsil haqlarının yığılma qaydası da dəyişib. Belə ki, bu günə qədər hər ay ödənilən vəsaitlərin ildə iki dəfə yığılması göstərişi verilib. Bəs qiymətlərin bu səviyyədə artırılması bu məktəblərə marağı azalda bilərmi? Hazırda uşaq incəsənət məktəbləri ilə bağlı mövcud durum necədir?

### "BU MƏKTƏBLƏRDƏ 53 MİNƏ YAXIN ŞAGİRD TƏHSİL ALIR"

Mədəniyyət Nazirliyindən sorğumuza cavab olaraq bildirildi ki, hazırda ölkədə 237 incəsənət məktəbi fəaliyyət göstərir. Bu məktəblərdə ümumilikdə 53 minə yaxın şagird müxtəlif ixtisaslar üzrə (musiqi, rəssamlıq, xoreoqrafiya və s.) təhsil alır: "Ümumilikdə uşaq incəsənət məktəblərinə maraq yüksək səviyyədədir. 2024/2025-ci tədris ili üzrə keçirilən elektron qəbul müsabiqəsi zamanı 18 800-dən çox müraciət daxil olub. Bu, əvvəlki illərlə müqayisədə artım və davamlı marağın göstəricisidir. Qeyd edilən təhsil müəssisələrində ödəniş məbləğlərində edilən dəyişikliklər şagird sayına mənfi təsir göstərməyib, əksinə, müraciət dinamikası və valideyn marağı artıb".

### "BƏZİ MƏKTƏBLƏRDƏ TƏMİNAT PROBLEMLƏRİ QALMAQDADIR"

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Elçin Mirzəbəylinin sözlərinə görə, uşaq incəsənət məktəblərinə maraq səviyyəsində artım müşahidə olunur. Rəsmi məlumatlara görə, 2023–2024-cü tədris ilində bu məktəblərə qəbul olunan uşaqların sayı əvvəlki illə müqayisədə 5–7 faiz çox olub: "Ən çox müraciət olunan ixtisaslar fortepiano, rəsm, vokal və milli musiqi alətləri istiqamətləridir. Bakı, Gəncə, Sumqayıt və Abşeron bölgələrində bu məktəblərə tələbat yüksəkdir və yerlər məhdud olduğundan bəzən seçim müsabiqə əsasında aparılır. Uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri gənc istedadların aşkara çıxarılmasında, onların yaradıcılıq qabiliyyətinin inkişafında və gələcək peşəkar təhsil üçün ilkin baza formalaşdırılmasında mühüm rol oynayır. Son illərdə bu sahədə bir sıra islahatlar aparılıb. Tədris proqramlarının yenilənməsi, müəllimlərin attestasiyası, məktəblərin maddi-texniki bazasının qismən gücləndirilməsi və idarəetmə sistemində vahid standartların tətbiqi bu istiqamətdə görülən işlərdəndir. Bununla yanaşı, bəzi məktəblərdə hələ də infrastruktur və təminat problemləri qalmaqdadır. Maddi-texniki bazanın zəifliyi, köhnə musiqi alətləri, müəllimlərin əməkhaqqının aşağı olması və tədris şəraitinin bərabər səviyyədə təmin edilməməsi çətinlik yaradır. Belə şəraitdə ödənişli təhsil modellərinin genişləndirilməsi və təhsil haqlarının artırılması addımı bəzən maliyyə ehtiyaclarını qarşılamaq məqsədi daşıya bilər".



## İCTİMAİ ƏSASLANDIRMA ZƏRURİDİR

E.Mirzəbəyli bildirdi ki, qiymət artımı ilə bağlı iddialar təsdiqlənərsə, bu, həm sosial, həm də institusional baxımdan müxtəlif təsirlər doğura bilər: "Sosial planda artım aşağı və orta gəlirli ailələr üçün əlavə yük yaradır. Əgər aylıq ödənişlər 50–70 manatdan 100–150 manata yüksəlibsə, bu, bəzi valideynlərin övladlarını məktəbdən çıxarmaq qərarına gəlməsinə səbəb ola bilər. Bu isə istedadlı uşaqların yaradıcılıq imkanlarının məhdudlaşması deməkdir. Digər tərəfdən, əgər yığılan vəsait məktəblərin maddi bazasının möhkəmləndirilməsinə, müəllimlərin maaşının artırılmasına və tədris şəraitinin yaxşılaşdırılmasına yönəldilirsə, bu, uzunmüddətli perspektivdə təhsil keyfiyyətinə müsbət təsir göstərə bilər. Lakin qərarın şəffaflığı və ictimai əsaslandırılması zəruridir".



Elçin Mirzəbəyli

Foto: Tapdıq Abdullayev Global Media Group

## "UŞAQLARI İNCƏSƏNƏTDƏN UZAQ SALMAQ OLMAZ"

Milli Məclisin Mədəniyyət komitəsinin üzvü Elnarə Akimova da düşünür ki, qiymət artımı şagirdlərin incəsənətdən uzaqlaşmasına səbəb ola bilər: "İncəsənət məktəblərinə maraq yüksəkdir. Valideynlər övladlarının gələcəyini sənətdə görür, onları musiqiyə, rəsmə, teatr sənətinə yönəltmək istəyirlər. Amma bu maraq yalnız fürsət olanda davam edə bilər. Əgər bu məktəblər orta gəlirli ailələr üçün əlçatmaz hala gətirilərsə, o zaman gələcəyin istedadlı gəncləri elə uşaqlıqda bu yoldan soyuyacaqlar. Bu gün uşaq incəsənət məktəblərində həm dövlət sifarişi (yəni pulsuz təhsil alanlar), həm də ödənişli əsaslarla təhsil alan uşaqlar var. Lakin bir çox ailə üçün bu ödənişlər onsuz da yük idi. İndi isə ikiqat artım bir çox uşağın məktəbdən uzaqlaşdırılması riskini doğurur. Bəzi valideynlər artıq övladlarını dərslərdən çıxarmaq məcburiyyətində qaldıqlarını bildirirlər".



Elnarə Akimova

Foto: Rüfət Mikayılov Global Media Group

E.Akimovanın fikrincə, qiymət artımı bu məktəblərin fəaliyyətinə təkcə maddi yox, mənəvi təsir də göstərə bilər: "Əgər bir uşaq sırf ödənişə görə sevdiyi fortepianodan, fırçasından, ya da balet paltarından uzaq qalırsa, bu, tək bir ailənin yox, bütöv cəmiyyətin itkisi deməkdir. Uşaqları incəsənətdən uzaq salmaq olmaz. Bu artım təkcə qiymət artımı deyil, həm də istedadın qarşısına qoyulan görünməz baryerdir".

### "HƏLƏ Kİ, MARAQ VAR, ONU ÖLDÜRMƏYƏK"

Təhsil eksperti Elmin Nurizadənin sözlərinə görə, incəsənət məktəblərində vəziyyət qənaətbəxşdir. Çünki bizim xalq hər zaman mədəniyyətə yüksək sevgi bəsləyib: "Musiqi məktəbləri hər zaman valideynlərin marağında olub. Lakin son dönəmlər incəsənət məktəblərinə aid problemlər artmaqdadır. Lakin düşünürəm ki, uşaq incəsənət məktəblərinə marağı daha da artırmalıyıq. Uşaqları cəlb etmək üçün yumşaldılmalar etməliyik. Tələblərin, qiymətlərin artması ilə bu marağın azalmasına səbəb ola bilərik. Hələ ki, maraq var, onu öldürməyək".



Elmin Nurizadə

# DÜNYANIN ƏN BÖYÜK HOKKEY MUZEYİNDƏN REPORTAJ

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**Torontoda yerləşən bu muzeydə NHL kuboklarına baxmaq və foto çəkdirmək imkanı var. Muzeyin mağazasında hokkey mallarının geniş seçimi təklif olunur. Hər gün buranı minə yaxın insan ziyarət edir.**

Kanada buzüstü hokkeyin vətənidir. Bu ölkədə hər ana doğulan körpəsinin bu məşhur idman növündə oynamasını arzulayır. Bu oyunun tarixinə və şöhrətinə görə 80 ildən çoxdur ki, Ontario bölgəsinin paytaxtı Torontoda Beynəlxalq Hokkey Şöhrət Zalı (IHHOF) fəaliyyət göstərir. Bu, dünyanın ən böyük hokkey muzeyidir. Muzeyin Torontoda açılması buz üzərindəki bu məşhur oyunun ilk dəfə məhz bu şəhərdə oynanması iddiası ilə bağlıdır. Təcrübəli turistlərin fikrincə, Kanadaya səfər etmək və Torontoda Hokkey Şöhrət Zalına baxmamaq ən azından qəbahətdir.

Uşaqlıqdan hokkey həvəskarı olduğumdan mən də Kanadaya səfərim zamanı bu fürsəti əldən vermədim.

### HƏR İL 300 MİNDƏN ÇOX AZARKEŞ

Muzey ilk andan nəinki oyunun pərəstişkarlarını, hətta ən laqeyd ziyartəçiləri belə ovsunlayır. Bəzi dəhlizlər uşaqların həyətlərdə disk (şayba) vurduqları və oyunun sovet əfsanələrinin ekranda parladığı dövrün atmosferini real şəkildə əks etdirir.

Hokkey Şöhrət Zalı mürəkkəb bir tarixə malikdir. İlk ziyarətçilərini qarşılamazdan əvvəllər sadəcə bir ideya olaraq mövcud olub.

1939-cu ildə ABŞ-da Milli Beysbol Muzeyi və Beysbol Şöhrət Zalı açıldıqdan sonra "niyə bizdə olmasın?" deyə Kanadada Hokkey Şöhrət Zalının yaradılması ideyası formalaşıb. 1940-cı ilin dekabrında "Montreal Gazette" ilk dəfə "mifik hokkey şöhrət zalı"ndan bəhs edib. "Hokkey Şöhrət Zalı" 1943-cü ildə Kinqstonda açılıb. Bir neçə ildən sonra isə Torontoya köçürülüb. 1990-cı illərdə xeyli genişlənib və Yonge küçəsində yeni ünvan tapıb. Getdikcə muzey öz kolleksiyasını genişləndirib. Muzeyin ümumi sahəsi ən böyük hokkey meydançasından iki dəfə böyükdür. Bu geniş məkan 15 sərgi salonuna bölünür. Ziyarətçilər muzeyi buz üzərində oyun haqqında öyrənmək və eyni zamanda, əylənmək üçün ən yaxşı yer adlandırırlar. Muzey hər il 300 mindən çox hokkey azarkeşini cəlb edir.




## Hokkeyçilər üçün şərəf yeri

Muzeyin girişində gələn qonaqları hokkeyçilərin heykəlləri qarşılayır. Ekspozisiyalardakı eksponatlar təkcə Kanada deyil, həm də Avropa hokkeyinin tarixinə həsr olunub. Dünyanın müxtəlif ölkələrindən, hətta Meksika, Mərakeş və Portuqaliya kimi ekzotik ölkələrdən hokkey artefaktları, kuboklar, xatirə lövhələri və milli komandanın eksponatları toplanaraq nümayiş olunur. Tanınmış hokkeyçilər burada təmsil olunmaqdan şərəf duyurlar. Divarlar ulduzları və çempionatlardan maraqlı məqamları əks etdirən fotoşəkillərlə doludur. Ziyarətçilərə hokkeyin yaranma tarixindən bu günə qədər tarixi ekskursiya təklif olunur.

### ƏFSANƏVİ STENLİ KUBOKU

Muzeydə 300-dən çox seçilmiş görkəmli hokkey xadimlərinə aid şəxsi əşyalar, mükafatlar və idman ləvazimatları nümayiş etdirilir. Təəccüblü deyil ki, kolleksiyada əsasən NHL (Milli Hokkey Liqası) oyunçuları çoxluq təşkil edir. Amma dünya hokkey ulduzları da diqqətdən kənarda qalmayıb. Onların adları fəxri lövhədə həkk olunub. Hər bir eksponat ətraflı təsvirlə müşayiət olunur. Vitrinlər dünyanın ən yaxşı oyunçuları və komandaları haqqında mühüm qələbələri əks etdirən fotoşəkillər və hekayələri təqdim edir. Qadın hokkeyi haqqında da maraqlı eksponatlar nümayiş olunur.

Hokkey Şöhrət Zalının əsas xəzinəsi onun NHL xatirə əşyaları və kubokları, o cümlədən əfsanəvi Stenli Kubokudur. Bu nüfuzlu kubok hər il NHL yarışlarının qalibinə verilir.

NHL zalının divarları bütün fəxri üzvlərin tərcümeyi-halı daxil olmaqla portretləri ilə örtülüb. Çempionlar Liqasının kubokları da ekspozisiyada nümayiş etdirilir.

NHL Zonasında həm keçmiş, həm də indiki hokkeyçilərin böyük sərgisi təqdim olunur. Burada liqanın ən məşhur oyunçularının və rekordlarının xatirələri yer alıb. Muzeyin maraqlı eksponatlarından biri "Montreal Kanadiens" komandasının qapıçısı Jak Planta məxsus hokkey maskasıdır. O, 1959-cu ildə oyunun üçüncü dəqiqəsində burnunun sınmasından sonra maskadan istifadə edib və bu hadisədən sonra oyunda qapıçıların hokkey maskasından istifadəsinə icazə verilib.




## "Qırmızı maşın"la rəqabət

Muzeyin ən maraq doğuran eksponatları SSRİ və Kanada yığmalarına aid nümunələrdir. Kanada yığmasının SSRİ-nin "Qırmızı maşın"ına qarşı yarışlarının videolarının nümayişinə hər il minlərlə tamaşaçı toplanır. SSRİ və Kanada komandaları arasında silsilə oyunlarla bağlı fotolar həm də nostaljidir. SSRİ yığmasının əfsanəvi qapıçısı Vladislav Tretyak, məşhur oyunçulardan İqor Larionov, Sergey Makarov, Aleksandr Mogilnı, Pavel Bure, Sergey Fyodrov və başqa hokkeyçilərin idman kostyumları, çubuqları, konkiləri o zaman bu oyunları izləyən azarkeşləri keçmişə aparır. Bu zallarda vaxtaşırı müvəqqəti sərgilər keçirilir. Məsələn, məşhur Ueyn Gretski və ya Mario Lemyenin tarixi artefakt kolleksiyaları və nadir şəxsi əşyaları muzeydə sərgilənir.

Hər il noyabr ayında Şöhrət Zalı ənənəvi olaraq "Toronto Maple Leafs" və qonaq komanda arasında oyunla yekunlaşan induksiya mərasiminə ev sahibliyi edir. Muzey hər bir ziyarətçi üçün maraqlı olan məzmun təklif edir. Ziyarətçilər Sidney Crosby və Carey Price-ın canlı ölçülü versiyaları da daxil olmaqla, bütün zamanların ən yaxşı qapıçıları və oyunçularının animasiya versiyaları ilə virtual dueldə yarışa bilərlər. Standart NHL arenasında soyunub-geyinmə otağının surətini ziyarət etmək, arzu edilən Stenli Kuboku da daxil olmaqla NHL kuboklarına baxmaq və foto çəkdirmək imkanı var. Muzeyin mağazasında hokkey mallarının geniş seçimi təklif olunur. Muzeyə giriş üçün isə 25 Kanada dolları ödəmək lazımdır. Hər gün muzeyi minə yaxın insan ziyarət edir.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
25 OKTYABR ŞƏNBƏ 2025




# FUTBOLUMUZUN MƏŞHUR LEGİONERLƏRİ

**Azərbaycanda bu mövsümün əsas hadisəsi Vensan Abubakarın “Neftçi”yə gəlişidir. Uzunmüddətli danışıqlardan sonra bir neçə gün öncə kamerunlu forvardın “ağ-qaralar”a keçidi xəbəri gündəmi silkələdi.**

Son illərdə Azərbaycan futbolu bir sıra tanınmış futbolçuların diqqətini cəlb edib. Xüsusilə, “Qarabağ”ın beynəlxalq arenadakı uğurlu çıxışları ölkə klublarına olan marağı artırıb. Bura gələn ulduzların bir qismi karyeralarının son mərhələsində yeni təcrübə yaşamaq, digərləri isə özlərini yenidən sübut etmək ümidi ilə bu seçimi edir. Amma məqsədləri nə olursa-olsun, onların hər biri Azərbaycan çempionatına özünəməxsus dəyər qatır - təcrübələri, mediada yaratdıqları maraq, beynəlxalq imicə verdikləri töhfə və bəzən də yadda qalan epizodları ilə. Son olaraq Vensan Abubakar “Neftçi” ilə müqavilə imzaladı.

### MPENZA İLƏ AÇILAN CIĞIR

Emil Mpenzaya qədər də bəzi məşhur oyunçular Azərbaycan çempionatına üz tutub. Lakin belçikalı forvard öncəkilərin hər birini üstələyirdi. O, 2010-cu ildə “Neftçi”yə transfer olunanda artıq Avropa futbolunun tanınmış simalarından biri idi. “Şalke”, “Hamburq”, “Mançester Siti” kimi klublarda oynamış Mpenza Bakı klubuna gələndə 32 yaşı var idi. O, “Neftçi”də keçirdiyi 28 oyunda 5 qolla yadda qaldı. Hərçənd yaş və zədələr onun tam potensialını göstərməsinə imkan vermədi, lakin belçikalı Azərbaycan futboluna gələn ilk “dünya səviyyəli” hücumçulardan biri kimi tarixə düşdü. Mpenzanın transferi sonrakı illərdə ölkəmizə gələcək ulduzlara yol açan ilk addımlardan biri idi.

### BAKIYA GƏLƏN “ZADƏGAN”

2019-cu ilin yazında dünya futbolunun nəhəng adlarından biri, “Çelsi”nin sabiq ulduzu Maykl Essien Bakıya gəldi. Uzun illər “zadəganlar”ın əsas simalarından olan qanadlı yarımmüdafiəçi “Sabail”lə müqavilə bağladı və qısa müddətdə klubun simasına çevrildi. Essien yalnız meydanda yox, həm də soyunub-geyinmə otağında təcrübə mənbəyi idi.

Baxmayaraq ki, yaş və zədələr onun ən yaxşı performansını göstərməsinə mane olurdu, “Sabail”də Essien 14 oyunda meydana çıxdı. Onun gəlişi beynəlxalq səviyyədə Azərbaycan futbolunun tanınmasına səbəb oldu. Essienin Bakıya gətirdiyi əsas dəyər nəticədən çox imic idi.


Asmir Beqoviç


Maykl Essien

## ÖZÜNÜ YENİDƏN SÜBUT EDƏN BENZİYA



Yassin Benzia

“Qarabağ” son illərdə legioner siyasətini ən uğurlu şəkildə quran klubdur. Bu strategiyanın növbəti hədəfi 2023-cü ildə Yassin Benzia oldu. “Lill” və “Lion” kimi klublarda oynamış fransalı hücumçu “Qarabağ”a gələrkən, karyerasının eniş dövrünü yaşayırdı. Burada isə o, yenidən parlamağı bacardı. Benziya ölkəmizə həm Avropa təcrübəsini, həm də yaradıcılığını gətirdi. O, “Qarabağ”da ümumilikdə 62 oyunda 19 qol vurmağı bacardı. Futbolçunun oyun tərzi komandanın taktikasına uyğun idi: driblinq, ötürmə dəqiqliyi və son zərbələrdə səlisliyi.

## QAPIDA “PREMYER LİQA SƏVİYYƏSİ”

2019-cu ildə Asmir Beqoviçin “Qarabağ”a transferi həm yerli, həm də beynəlxalq mediada böyük əks-səda doğurdu. Bosniya və Herseqovina millisinin sabiq qapıçısı, “Çelsi” və “Everton” kimi klublarda çıxış etmiş Beqoviç “Bornmut”dan icarəyə gəldiyi zaman hələ də möhtəşəm formada idi.

Qapıda inamlı çıxışları ilə o, komandanın Avropa oyunlarındakı əsas dayağına çevrildi. Beqoviç Azərbaycan çempionatını çempionluq titulu ilə başa vuraraq ölkədə təkcə ulduz deyil, həm də peşəkarlıq simvolu olaraq yadda qaldı.

### YAPON DƏQİQLİYİ İLƏ “NEFTÇİ”DƏ

2021-ci ildə pandemiya səbəbindən bütün dünyada futbol dayanmışkən, Keysuke Honda Azərbaycana gəldi. Yapon ulduz “Neftçi” ilə qısa müddətli müqavilə imzaladı və 7 oyunda 2 qol vurdu. “Milan”dakı oyunu ilə məşhurlaşan Honda “Neftçi” üçün PR baxımından böyük addım olmaqla yanaşı, komandanın titul arzusuna son qoymaqda da aparıcı oyunçulardan idi. O, komanda ilə birlikdə həmin mövsüm Azərbaycan çempionu oldu və karyerasını titulla başa vurdu. Honda intizamlı, təmkinli və texniki cəhətdən hələ də güclü idi. Qısamüddətli də olsa, Honda Azərbaycan futbolunda iz qoymağı bacardı.

## ABUBAKARDAN NƏ GÖZLƏYƏK?

Azərbaycanda bu mövsümün əsas hadisəsi isə Vensan Abubakarın “Neftçi”yə gəlişidir. Kamerunlu forvardın “ağ-qaralar”a keçidi xəbəri gündəmi silkələdi. Sonuncu klubu “Hatayspor” olan Abubakar vətənindən başqa, Fransa, Portuqaliya, Türkiyə və Səudiyyə Ərəbistanı liqalarında da çıxış edib. Kamerun milli komandasının kapitanı olan hücumçu yığmanın heyətində 115 oyun keçirib, 45 qola imza atıb. Abubakar 2017-ci ildə milli ilə Afrika Kubokunu başı üzərinə qaldırıb, 2022-ci ildə isə 8 qolla Afrika Millətlər Liqasının bombardiri olub. “Neftçi” azarkeşlərinin ulduz futbolçuya inamı böyükdür. O, komandanın hücum xəttindəki çətinliyini aradan qaldırmaq üçün transfer edilib. Eyni zamanda, “Neftçi”nin adının beynəlxalq arenada daha çox çəkilməsinə səbəb olub. Hələlik Abubakarın nə ilə yadda qalacağını təxmin etmək çətindir. Lakin əgər o, bacarığını göstərə bilsə, Premyer Liqanın əsas simalarından birinə çevriləcək.